# PSİXOLOGİYA JURNALI

*Elmi-praktik jurnal*

*1999-cu ildən nəşr olunur* **2022 №1** *3 ayda bir dəfə nəşr olunur*

## ÜMUMİ PSİXOLOGİYA

***Ризаева Гюльнара С.***

Статистика разведенных семей в азербайджане
за последние десять лет ....................................................................3

***Teymurova İradə A.***

Azərbaycançılıq – vətəndaş identikliyi təşəkkülünün əsası kimi......13

***Kazımov Pərviz K.***

Uşaqlarda peşəkar “Mən” konsepsiyasının
formalaşma mərhələləri ....................................................................20

***Cəbrayılova Səbinə T.***

Ekstrasensor testlərin nəticəsinə təsir edən amillər...........................43

## TİBBİ PSİXOLOGİYA

***Allahyarova Sevinc A., Əskərli Aytac R.***

Bullinqə məruz qalan məktəblilərdə
psixopatoloji halların yaranma səbəbləri ........................................55

***Allahyarova Sevinc A., Ələkbərova Xəyalə Ə.***

"Z" nəslinin informasiya texnologiyasından istifadəsi ilə
sosial intellekt arasındakı əlaqəsi ..................................................61

UOT 316.62

# СТАТИСТИКА РАЗВЕДЕННЫХ СЕМЕЙ В АЗЕРБАЙДЖАНЕ ЗА ПОСЛЕДНИЕ ДЕСЯТЬ ЛЕТ

**Гюльнара Ризаева**
*Азербайджанский Университет Языков*
*Rəşid Behbudov küç. 134, indeks AZ 1014*
*grizayeva01@gmail.com*

**Açar sözlər:** *müasir ailələr, müasir cəmiyyət,əhali sayı,statistik rəqəmlər, boşanma səbəbləri*
**Ключевые слова:** *современная семья, современное общество, численность населения, статистические данные,причины разводов*
**Key words:** *modern family, modern society, population, statistics, causes of divorce*

## ВВЕДЕНИЕ

Главный вопрос, который является актуальным для современного азербайджанского общества это,почему разрушаются современные семьи ? Есть ли в азербайджанских семьях насилие? На погашение кредитов, еду, медицину, досуг сколько тратит среднестатистическая азербайджанская семья? Каким образом оценивается работа государственных органов, занимающихся семейными вопросами? Официальная статистика, за последнее время,говорит о том, что браков все меньше, а разводов все больше. Какова же ситуация на самом деле? Нужно отметить, что современные типологии семьи различны. Среди них можно перечислить такие семьи как: нуклеарная (родители и дети), расширенная (с бабушками и дедушками), моно родительская, многодетная, семьи, где есть дети -инвалиды, семьи с опекунством над детьми, межнациональная.

Число браков в Азербайджане в 2020 г.сократилось в 1,8 раза, разводов-почти на 15% стало больше. По статистическим данным Азербайджанской Республики на 1000 человек количество браков снизилось на 45,3% по сравнению с 2019 годом,и составляет 3,5% , а число разводов 1,5%. Если рассмотреть уровни молодых

людей, вступивших в брак, составляет в КялбаджарЛачинском (4,1), в экономических районах Арана (1,4), Горный Ширван (3,8), Верхний Карабах (3,6), Баку (3,6). Уровни разводов составляет следующую картину: в Баку (1,8), Верхний Карабах и Кялбаджар - Лачинский район (1,7 каждый), Абшеронский экономический район (1,6).

Численность населения Азербайджана в 2020 году увеличилось на 52,025 тысяч человек или на 0,5% до 10 млн. 119,133 тысяча на 1 января 2021 года по исследованиям Госкомстата. В городах проживает 53% населения страны,в сельской местности – 47%. При этом 49,9% населения составляют мужчины, 51% женщины.

В среднем на каждые 1 тысяча мужчин в Азербайджане приходится 1,04 женщины. За отчетный период в республике зарегистрировано 35,348 тысяч браков (спад 1,8 раза по сравнению с 2019 годом) и 14,628 тысяч разводов (спад на 14,7%). Практически из всех опрошенных 66% состоят в официальном браке, 12,6% являются разведенными. Все-таки мотивами вступления в брак можно считать традиционные мотивы. А именно: большое желание создать семью – 79%, из чувства любви - 63%, естественная потребность в желании иметь детей -37%. И лишь 7% опрошенных говорили о такой причине, как: что скажет общество? Есть категория людей, которые подчинились воле родителей – 6,6%. Можно сказать о том, что все -таки большинство придерживается мнения о том, что нужно регистрировать брак официально (73%). Но также есть категория молодых людей, не заинтересованных в регистрации брак 35%. Самое интересное то, что еще категория молодых людей, которые категорически не приемлют сожительство без брака – 41,3%. К межнациональным бракам треть азербайджанцев относятся положительно, если молодые одной веры, нейтрально -41%, против 26,5%. Ну а всего лишь 3% считают это грехом. Самое интересное 8% опрошенных считают, что дети в семье не обязательны, а 47% вообще не готовились к рождению ребенка. Практически у 40% после рождения детей, возникли материальные трудности, 31% испытывают жилищные проблемы и у 23% возникли проблемы со здоровьем. Если верить этим статистическим данным то, 62% семей занимаются воспитанием детей совместно, у 20% пар, папа, просто приходящий иногда,

и твердо 18% не принимают в этом никакого участия. Ответы на вопрос: Кто главный семье ? также были очень интересны. Муж -57%,муж и жена -оба -41%, если муж будет добытчиком, то соответственно семья будет крепкой сказали – 88% опрошенных. Также интересным является и то, что многие женщины отвечали, что потенциальный добытчик необязательно один должен распоряжаться финансами семьи. Отвечая на вопрос о том, что кто должен распоряжаться финансами, думать о здоровье и об образовании детей, все единогласно говорили, что эту миссию должна брать на себя женщина. То есть мужчина должен всего лишь финансово обеспечивать семью. Все остальное в семье должна решать женщина. Если говорить о том, что из 200 опрошенных, материальное положение азербайджанской семьи, нельзя назвать прочным. У 66% опрошенных респондентов совместный доход семьи составляет 1000 манат в месяц, 25% отметили, что это 500-600 манат.В каждой азербайджанской семье есть пожилые люди, о которых нужно заботиться. На вопрос о насилии в азербайджанской семье, опрошенные ответили следующим образом: насилие 75% (физическое),70% психологическое, экономическое 30%, а также вредные привычки (наркоманию, алкоголизм, увлечения азартными играми.)

Причин разводов в азербайджанской семье множество. Это и вмешательство в семью родственников – 60%, вторая причина – вседозволенность современной молодежи; третья причина – утрата семейных ценностей (36%); четвертая причина материальная – 28%; следующая – легкость процедуры развода 25%. Любовь, как причину назвали только 1% респондентов. Практически половина опрошенных, причиной разводов считают отсутствия взаимопонимания, измену, пьянство , наркоманию; 20% считают,что причиной могут быть отсутствие детей, 3% люди разного рода социальных уровней.Лишь только 4% говорят о том, что развод неприемлем ни в каком случае. По данным статистике государственного комитета, на развод подают чаще всего люди в возрасте от 30 до 34 лет, которые находились в браке не менее 5 лет. При этом инициаторами подачи на развод считаются женщины.

Если обратить внимание на таблицу, которая представлена на сайте государственного комитета

по статистике с 1935 года по нынешнее время, то можно увидеть следующую картину: что коэффициент по бракам в 2019 году был самым низким за последние 20 лет, а по разводам составил 1,7% самая большая цифра с 1990 года. В 2019 году в Азербайджане было зарегистрировано 63869 браков, разводов -17 148 (26,85%)семей. За 2020, 2021 год картина более выглядит устрашающая. Причиной, безусловно, можно назвать и пандемию, которая в буквальном смысле проверяла семьи на прочность. Очень многие семьи во время пандемии просто не выдержали психологический дискомфорт существования и житья в семье. Так как, если в семьях и была какая -то проблема, то она не стояла остро. Так как, люди находясь в обществе, работая, старались забывать о проблеме, уходя полностью в работу. Но во время пандемии, произошло то, что люди были вынуждены в условиях пандемии, жить в условиях закрытого пространства. То есть, молодые люди остались наедине самим собой и с членами своей семьи. Многие из них просто не выдержали психологических, материальных, жилищных проблем. Начались выяснения отношений, взаимные упреки, которые привели к разводам во время пандемии. Естественно,были и те, которые, наоборот, укрепили семейные узы, отношения. Но нужно отметить, что проблема, она безусловна, была и до пандемии. Для того, чтобы разобраться немного в этой проблеме, была проведена небольшая анкета среди населения города Баку. Для этого были опрошены 200 человек городского населения. Были интересны мужской и женские взгляды на развод. Также интересным было и мнение жителей на взгляды современной семьи. Что они думают о современных семьях? В чем проблема современных разводов? Почему семьи рушатся? Что является причиной кризиса в семейных отношениях? Были интересны ответы, при которых женщины заявляли о том, что виноваты только мужчины. Или, наоборот, заявление мужчин о том, что женщины стали более самостоятельны, требовательны и,следовательно, виноваты женщины. Были ответы, в которых мнение совпадало в том, что виноваты оба. Что в сохранности семьи несут ответственность оба (30%). И мужчина,и женщина. Практически треть опрошенных женщин, говорили о том, что они не смогли бы жить в семье, где присутствует в семье насилие. Лишь незначи-

тельная часть респондентов -мужчин, указывали насилие как причину. Это еще раз доказывает то, что в Азербайджане насилию в семье подвергаются женщины, и это как причину развода, рассматривают лишь незначительная часть населения. Существует еще и ментальная сторона этого вопроса. Испокон веков в Азербайджанской семье всегда существовала как бы такая установка: стерпится -слюбится. Что женщина должна все терпеть, если она хочет сохранить семью. Поэтому сложилось такое мнение в обществе, что в принципе насилие в семье не является такой лишь причиной, чтобы разрушить семью. Если мужчина обеспечивает семью материально, не имеет вредных привычек. То есть не увлекается азартными играми, не страдает алкоголизмом, наркоманией, то нет причины разрушать семью. К сожалению, статистика насилия в семье в последнее время растет. И мы наблюдаем такую картину, при котором видим, что в связи с различными проблемами, которые испытывают молодые мужья: безработица, стресс на работе, депрессия, рост цен на жилье, социальные вопросы , все чаще и чаще прибегают к насилию в семье. Думаю, что в последнее время именно насилие в семье стало ключевой причиной разводов. Самый стандартный и распространенный ответ при этом, нужно терпеть ради детей составляет 20%.

Подводя какие-то выводы, можно говорить о том, что институт семьи в Азербайджане испытывает демографический переход. При котором разрушаются прежние традиционные моральные устои и взгляды на семью, возраст вступления в семью становится более старшим, молодые предпочитают создавать семью исходя из своего личного решения, знакомства и любви. Молодые семьи предпочитают жить отдельно от старшего поколения, считая, что они могут быть причиной различных конфликтов. Очень многие молодые люди, предпочитают делать карьеру, стать на ноги, создать социальную, материальную базу семьи. Лишь добиваясь определенных целей, считают, что можно говорить о семье. С одной стороны,такое трезвое отношение к жизни и к семье должно только радовать. Ведь ничего плохого в том, что молодые люди выдвигают – нет. Но нужно отметить и тот факт, что несмотря на все вышеперечисленное, число разводов растет.

Нужно отметить, что растут также и семьи, где молодые семьи предпочитают не регистрировать брак, а жить по типу сожительства. Эта проблема впоследствии создает такую демографическую задачу, с которой не могут справляться или испытывают трудности и государственные органы. Так как, семьи не зарегистрированы, то рождаются дети вне брака. У этих детей фактически нет никаких прав в семье. То есть, если происходит развод или разлад в семье, то эти дети остаются незащищенными. Как правило, эти женщины остаются без жилья и средств к существованию. Для того, чтобы подавать в будущем на какие-либо алименты, женщины должны подтвердить отцовство на детей. Следовательно, сдавать ДНК анализ. Прекрасно известно, что этот анализ является дорогостоящей процедурой, и как правило, не каждая женщина может позволить себе подавать на этот анализ. Определенно можно сказать еще о проблеме того, что не каждый бывший сожитель соглашается сдавать также этот анализ. Фактически получается замкнутый круг. И если женщина не грамотна, не образована, не знает свои права, следовательно, бороться за права своего ребенка также не сможет.

Еще одной застарелой проблемой в Азербайджане является ранние браки. В 2019 году в Азербайджане распались четыре семьи, в которых девушки не достигли 18 лет. По законодательству Азербайджанской Республики, молодые люди, не достигшие возраста от 16 до 18 лет, имеют права заключить брак, только с согласия родителей. Статистические данные могут быть намного выше. Мы должны учитывать и то, что это всего лишь данные официальных структур. Неофициальных браков с малолетками или с лицами, не достигшими 18 лет, может быть гораздо больше. Так как эти браки просто не регистрируют. То есть живут по принципу сожительства. Государство сталкивается с этой проблемой лишь тогда, когда приходится регистрировать, получается, незаконнорожденных детей. В 2019 году треть разведенных состояло из молодых людей, не достигших 30 лет. К сожалению, эта традиционная национальная проблема, которая стоит остро в Азербайджане. Так как традиционно в Азербайджане супругов для своих детей выбирают в основном родители. Или могут курировать этот вопрос. Изначально семьи создаются на ранних возрастах. Поэтому очень часто,

молодые не могут психологически противостоять натиску родителей. Безусловно, они хотят лучшей жизни своим детям. Но нужно признавать и то, что времена, когда родители выбирали мужа и невесту детям , прошли. Сейчас, с развитием науки, техники, социальных сетей взгляды на семью также изменились и начали переживать трансформацию. Возникает новая модель создания семьи. Молодые люди, как бы не смотрели в Европу, и не старались бы интегрировать в европейские ценности, нужно отметить, что Азербайджан является демократической, восточной страной. В Азербайджане, хотя и религия отделена от государства, то есть страна живет по демократическому курсу, большинство населения составляют мусульмане. Говорить о том, что было бы хорошо, если бы молодые до брака жили бы совместно, как в Европе, а потом сделали серьезный шаг к созданию семьи не приходится. Так как, ни одна семья в Азербайджане не согласится с тем, что девушку, как бы сначала берут на «пробу», а потом если она понравится, женятся на ней. Этот подход в создании семьи полностью исключен в Азербайджане. И никакая интеграция в Европу, не поможет в решении данной проблемы. Эта очевидная причина несовпадения многих молодых пар после свадьбы. Так как, у пар нет совместного сексуального опыта, у девушки нет этого опыта вообще. Так как по обычаю азербайджанского народа, девушка должна выходить замуж девственницей. И переломить это мышление и менталитет пока не представляется возможным. Нужно учитывать и то, что это восток, а восток дело тонкое.

**Выводы**

Здоровый брак является залогом здоровой экономики. Брак - вызывает экономический рост. Высокие показатели разводов оказывает негативное влияние на экономику. Потому что развод отрицательно влияет на производительность. Брак является ключевым фактором, способствующим развитию человеческого капитала. Женатые люди показывают более высокие темпы роста доходов, чем одинокие. Более того, развод вреден не только для экономики, но и для экологии и сохранения природных ресурсов. Число разводов в последние десятилетия привело к увеличению числа домохозяйств с меньшим количеством людей по всему миру. А вслед за этим и увеличению потребления воды и

электроэнергии. И еще, если верить многочисленным исследованиям и соцопросам, то получается следующее: семейные люди - лучшие работники. Женатые люди больше тратят денег на досуг. Полные семьи тратят на детей больше. Женатые мужчины больше зарабатывают. Разводы замедляют экономический рост государства. Женатые мужчины живут дольше. Семейные люди больше времени и ресурсов тратят на воспитание детей. Найти работу семейным людям намного легче. Поэтому, анализируя все вышесказанное, мы как азербайджанское общество, должны стараться сохранить и беречь институт семьи и брака. Так как без здоровой и полноценной семьи нет развития общества. Следовательно, нет и процветания общества. Важным является тот факт, что должны все же проводится определенные беседы и уроки про этику семейной жизни в школах. Молодежь нужно готовить еще со школьных лет к созданию и сохранению семьи. Нужно восстанавливать те лучшие традиции, которые сохранил наш народ. Нужно поддерживать молодые семьи и не оставлять их наедине с материальными, психологическими, жилищными проблемами. Для этого государственные службы, которые уполномочены в работе с молодежью, должны относиться к своей работе не формально, а реально. То есть поддерживать, помогать и направлять молодые семьи. Должны быть созданы и развиты различные психологические службы поддержки молодым семьям. И лишь при общей работе всего общества над этой проблемой, мы сможем выйти из этого кризиса, который охватил современное азербайджанское общество.

Литература.


1. Хумар Насир-заде. Статистические данные разводов в Азербайджанской республике за 2019, 2020, и 2-21 годы.
2. Брэдфорд Уилклкс, Джозеф Прайс, Роберт Лерман «Связь развития экономики и семьи».

# AZƏRBAYCANDA BOŞANMIŞ AİLƏLƏRİN SON ON İLDƏ STATİSTİKASI

***Gülnar Rizayeva***

**ABSTRAKT**

Məqalədə əsasən Azərbaycanda son on il ərzində ailələrdə bosanma statistikasına diqqət yetirilmişdir. Ailənin qarşısında duran ən böyuk problem olan boşanma problemindən bəhs edilir. Biz bilirik ki, müasir cəmiyyətdə son zamanların ən böyük problemlərindən biri yeni qurulan ailələrin natamam olması, ailələrin dağılması və uşaqların atasız böyümə problemidir. Bu problem əgər əvvələr tək Avropa xalqlarında, qərb cəmiyyətinə xas olan problem idisə, indi bu bizim gündəmimizdə olan ən aktual problemlərdən biridir. Son zamanlar pandemiya ölkədə elə bir vəziyyət yaratdı ki, bir çox ailələr, təbii ki, gənc ailələr, bu psixoloji gərginliyə dözməyərək boşanmağa üstünlük verdilər. Təbii ki, bu gələcəkdə cəmiyyətdə bir çox problemlər yaradacaq. Bir cəmiyyət olaraq biz hamımız bu neqativ hallarla mübarizə aparmalıyıq.

## STATISTICS ON DIVORCED FAMILIES IN AZERBAIJAN OVER THE LAST TEN YEARS

***Gulnar Rizayeva***

### ABSTRACT

The article focuses mainly on the divorces' statistics occurred in families in Azerbaijan over the last ten years. The topic of divorces, which is, in its essence, the biggest issue a family could possibly face, is widely discussed in academic environment. However, we know that one of the biggest problems recently in modern society is the incompetency of newly established families, the disintegration of families and the problem of children growing up without a father. If this problem previously appeared to be widespread only in European nations and Western society, now it is one of the most urgent problems on our social agenda too. Recently, the outbreak of pandemic intensified a situation, where many families, particularly, young families, and preferred to divorce due to psychological tension, which could not be tolerated at that stage of family development. Naturally, this will cause many problems in a considered society in the near future. As a society, we must all fight against these negative situations.

Məqalə Azərbaycan Dillər Universitetinin Psixologiya kafedrasının iclasında müzakirə edilərək çapa məsləhət görülmüşdür (protokol №1).

Rəyçi M.H.Mustafayev, psixologiya üzrə fəlsəfə doktoru
Məqalə redaksiyaya 10 yanvar 2022-ci ildə daxil olmuşdur.

UOT:377.4

# AZƏRBAYCANÇILIQ – VƏTƏNDAŞ İDENTİKLİYİ TƏŞƏKKÜLÜNÜN ƏSASI KİMİ

**İradə Teymurova**

*AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutu*
*Bakı ş., H.Cavid pr.,115, indeks AZ 1073,*
*E-mail: irade.teymurrova@gmail.com*

***Açar sözlər:*** *azərbaycançılıq, vətəndaş identikliyi, dövlət, vətən, vətəndaş, azərbaycanlı, ideologiya*
***Keywords:*** *Azerbaijaniism, civil identity, state, homeland, citizen, azerbaijanian, ideologygence*

## GİRİŞ

Tarixən dövlət xalqın tarixi düşüncə tərzinə arxalanan ideologiyanın gücü ilə yaranır. Elə ideologiyanın ki, o, ayrı-ayrı adamların ürəyinə hakim kəsilən inam və təsəvvürlərin məcmusunu, özlərinin, ailələrinin, xalqının, vətəninin sabahı naminə onların arzu və diləklərini əks etdirir. Azərbaycan bütün dinlərin, inamların və etiqadların, türk–alban, Kür–Araz–Fars, Skif və s. mədəniyyətlərinin, habelə digər mənəvi dəyərlərin sintezindən ibarət olub, böyük dünyamızın bütün atributlarını özündə birləşdirən bir dünyadır. Bu cür dərketmədən çıxış edərək demək olar ki, tarixi məkan kimi, Azərbaycanın əsas ideoloji müddəası da elə onun mənəvi mahiyyəti ilə müəyyənləşir. Elə bir mənəviyyatla ki, tarixən bu ərazidə yaşayan və buranı özləri üçün Vətən sayan etnik qrupların mənəvi və maddi irsi Azərbaycanın keçmişi, bu günü və gələcəyi fenomeninin mahiyyətini təşkil edir [4].

Problemə bu cür yanaşma vətəndaş identikliyi məfhumu və onun dövlət ideologiyası ilə qarşılıqlı əlaqəsi məsələsinin təhlilini zəruri edir.

Vətəndaş cəmiyyəti quruculuğu dövlət ideologiyasının mövcudluğunu tələb edir, milli ideya dövlət ideologiyasının manevr imkanlarından səmərəli istifadə etməklə daha sabit, stabil və ədəbi dəyərlərin bazasında gerçək fakta çevrilir [5].

Vətən ideyası, vətəndaşlıq ideyası, vətəndaş identikliyi və onun

mahiyyəti, strukturunun dərk olunması – müasir ciddi düşüncənin obyekti məhz bunlardır. İnkişaf variantlarını aşkara çıxarmaqla müzakirəsi zəruri olan da məhz bu mövzudur.

Bu səbəbdən “azərbaycançılıq” ideyası və onun vətəndaş identikliyinin təşəkkül və formalaşmasındakı oynadığı rolun təhlili xüsusi **aktuallıq** qazanır.

Bu ideyanın məzmunu ilk dəfə ümummilli lider Heydər Əliyev tərəfindən açılmış və bütün dünya azərbaycanlılarına ərməğan edilmişdir: “...Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq” [2, s.26].

Ümummilli lider Heydər Əliyev ilk dəfə azərbaycançılıq ideyasını dövlətin strateji xətti olaraq irəli sürəndə bu ideyanın həqiqi böyük mənası çoxları üçün anlaşılmaz idi. Bu gün də qismən belədir. Çünki bu ideya adi şüur səviyyəsində üzə çıxmayıb, yaxud deklarativ bir şüur olmayıb, dərin köklərə malik mükəmməl bir fəlsəfi konseptual sistemin ifadəsidir.

Məqalənin məqsədi “azərbaycançılıq” ideyasının mahiyyətini açmaq və gənc nəslə çatdırmaqdır.

**Azərbaycançılıq vətəndaş identikliyinin inkişaf modeli kimi.** Azərbaycan Respublikasının Konstitusiyası və hüququnun əsasları adlı kitabda gostərilir: “Azərbaycan dövlətinə mənsub olan, onunla siyasi və hüquqi bağlılığı, habelə qarşılıqlı hüquq və vəzifələri olan şəxs Azərbaycan Respublikasının vətəndaşıdır” [1, s.88].

Siyasi əlaqə, siyasi hakimiyyətin təşkilində vətəndaşın iştirakı və onun siyasi hüquq və azadlıqlara malik olması ilə izah olunmalıdır. Vətəndaşla dövlət arasında hüquqi əlaqə daimidir. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər isə yalnız müvəqqəti hüquqi əlaqədə olur. Dövlət həm əcnəbiləri, həm də vətəndaşları müdafiə edir. Lakin vətəndaşları əcnəbilərdən onun dövlətlə siyasi əlaqəsinin olması fərqləndirir. Əcnəbilərin siyasi sahədə hüquqları məhdudlaşdırılır. Deməli, **vətəndaşlıq** dedikdə, şəxsin dövlətə mənsubiyyəti, şəxslə dövlət arasında onların qarşılıqlı hüquq və vəzifələrində ifadə olunan daimi siyasi hüquqi əlaqə başa düşülür [1].

**Vətəndaş identikliyi**, vətəndaş cəmiyyətinə kollektiv subyekt olaraq davranmaq imkanı verən müəyyən dövlətin vətəndaş cəmiyyətinə individual aidolma hissidir [8].

Vətəndaş identikliyi fərdin özünü bu və ya digər dövlətə mənsub olmasını dərk etməsi və duyması, həmçinin özünü müəyyən dövlətin vətəndaşları ilə eyniləşdirərək konkret siyasi davranış modelinin olmasıdır. Vətəndaş identikliyinin təşəkkülünü başa

düşmək üçün onun struktur hissələrini nəzərdən keçirmək lazımdır. Vətəndaş identikliyi tərkibcə bir-biri ilə bağlı üç komponentdən ibarətdir: 1) koqnitiv, 2) affektiv, 3) davranış. Koqnitiv komponent özündə şəxsin dövlətlə əlaqəsi, bağlılığı haqqında bilikləri, təsəvvürləri ehtiva edir. Bu təsəvvürlərin, biliklərin düzgün dərk olunması olduqca mühümdür. Emosional (affektiv) komponent fərdin öz dövlətinə olan duyğu, emosiya və hisslərini əks etdirir. Davranış komponenti isə fərdin özünün eyniləşdirdiyi dövlətə münasibətdə reallaşdıracağı hərəkətlərə hazırlığı formalaşdırır [8].

Professor Rəna Qədirova "Milli və vətəndaşlıq identikliyinin tədqiqi istiqamətləri" adlı məqaləsində yazır: "Vətəndaş identikliyi anlayışının izahı zamanı iki mühüm aspekti fərqləndirmək mümkündür. Birinci halda, fərd üçün böyük əhəmiyyətə malik olan bu və ya digər dövlətin vətəndaş cəmiyyətinə mənsubluğunun dərk edilməsi nəzərdə tutulur.

Fərdi – kollektiv subyekt kimi səciyyələndirilən ikinci aspekt bir bütöv – tam və kollektiv subyekt kimi qəbul edilən, ortaq cəhətlərinə görə birləşmiş insan kütlələri ilə qarşılaşdırılan vətəndaş cəmiyyətinin mövcudluğu və inkişafının səciyyəvi cəhətləri ilə əlaqədardır.

Vətəndaş cəmiyyətinin kollektiv subyektivliyinin yaranması və mövcud olması amilləri arasında sözügedən cəmiyyətdə emosional vəziyyətlərin, xüsusilə real siyasi hərəkatlarla əlaqədar olan vəziyyətlərin birgə yaşanması xüsusi əhəmiyyət kəsb edir" [7, s.18-19].

Bu amillər sırasında ideologiyanın rolunu xüsusi vurğulamaq lazımdır. Fəlsəfə üzrə fəlsəfə doktoru Vahid Ömərov "İdeologiya anlayışının mahiyyəti" adlı məqaləsində yazır: "İdeologiyada səfərbəredici xarakter daşıyan, ictimai fəallığı idarə edən, dəyər yönümləri sistemi təsbit olunur. Buna müvafiq olaraq ideologiyada milli şüurla bağlı olan dəyərlər təcəssümünü tapır. İdeologiyanın şəxsiyyətin siyasi sosiallaşmasında böyük əhəmiyyəti vardır. Bu mənada, ideologiya sosial-siyasi dünyagörüşü kimi də çıxış edir. İdeologiya insana bir ictimai varlıq kimi baxmaqla səfərbəredici potensial yaradır" [9].

Tarixən dövlət, həm xalqın tarixi düşüncə tərzinə arxalanan fəlsəfənin gücü ilə yaranır, həm də siyasi ideyanı bir məcraya yönəldir. İslam dövlətçiliyi də belə qurulub, xristian dövlətçiliyi də. Biri müqəddəs Qurana, digəri İncilə əsaslanıb. Müasir Azərbaycan dövlətinə də məhz xalqın ürəyindən gələn, düşüncə tərzinə arxalanan fəlsəfə lazımdır. Bu "Azərbaycançılıq" fəlsəfəsidir.

İnsanları birləşdirən bir çox amillər var: dil birliyi, mənşə birliyi və s.,

lakin bunların arasında ən sıx, ən yaxşı və doğma birlik eyni vətəndaş cəmiyyətinə mənsubluğun gücü ilə yaranan birlikdir. Siseronun sözləri ilə desək: "Vətən – ümumi bağlılığı, yalnız o özündə cəmləşdirir" [4, s.10].

Azərbaycançılıq hər şeydən əvvəl bir məfkurədir. Demokratik prinsipləri, insanın hüquq və azadlıqlarını rəhbər tutan dövlətlər birliyinə qoşulmazdan əvvəl özünü dərk etməyə çalışan, Avropa Şürasına, Millətlər Məclisinə öz simasında daxil olmaq istəyən bir millətin məfkurəsidir.

Bu məfkurə təkcə Azərbaycan Respublikasında yaşayan azərbaycanlıların deyil, təkcə Azərbaycan dövlətinin maraqlarını deyil, həm də bütün dünyada yaşayan azərbaycanlıların milli-mənəvi maraqlarını ifadə edir.

Eyni zamanda bütün azərbaycanlılar harada yaşamasından və hansı ölkənin vətəndaşı olmasından asılı olmayaraq, rəsmi vətənləri ilə yanaşı, həm də özünün mədəni-mənəvi Vətəni olan Azərbaycanı düşünür, onun nüfuzunu uca tuturlar. Bundan əlavə, milliyyətcə azərbaycanlı olmasa da, bir neçə nəsl Azərbaycanda yaşamış və Azərbaycanı özlərinin tarixi vətəni hesab edən insanlar, xristian, yaxud yəhudi olmalarına, başqa millətin nümayəndəsi olmalarına baxmayaraq, Azərbaycan Respublikasının maraqlarına xidmət etməklə və ümumi Azərbaycan mədəniyyətinə qatılmaqla azərbaycançılıq məfkurəsinin iştirakçısı və təbliğatçısı olurlar.

Azərbaycançılıq milli münddəricədən kənara çıxan, millilik və ümumbəşəriliyin vəhdətindən çıxış edən bir məfkurədir [2].

Müstəqil Azərbaycan Respublikasının mövcudluğu xaricdə yaşayan azərbaycanlılara öz lokal mədəni-mənəvi mühitlərini Böyük Vətən hesabına müntəzəm surətdə akkumulyasiya etmək imkanı verir.

Artıq neçə yüzillik birgə yaşayış, birgə təsərrüfat fəaliyyəti Azərbaycan xalqının təkcə milli-siyasi müstəvidə deyil, həm də milli-etnik müstəvidə bir tam halında millətləşmə yolunu keçdiyini göstərir [2].

Dövlət qayğısını sözdə yox, əməli işdə görən, Azərbaycanı özünün qeydiyyat məkanı deyil, Vətəni sayan, özünün dininə, dilinə, milli mənsubiyyətinə, ədəbiyyat və mədəniyyətinə, adət-ənənəsinə hörmət və ehtiramın şahidi olan milli azlıqlar "azərbaycançılıq" idealı ətrafında daha sıx birləşdilər. Təsadüfi deyil ki, Qarabağ müharibəsində Müqəddəs Vətən torpağı naminə döyüşlərə gedərək ölümün gözünə dik baxanların və şəhidliyi özlərinə şərəf bilənlərin hamısı – "azərbaycanlı"lar idi. Onları bir-birindən etnik amillər, dini etiqad fərqləndirsə də, "azərbaycançılıq" birləşdirirdi. Belə birliyə

isə yalnız ümummilli lider Heydər Əlirza oğlunun müdrikcəsinə dediyi aşağıdakı ideyanı gerçəkləşdirməklə nail olmaq mümkündür: "Azərbaycan onun ərazisində yaşayan bütün millət və xalqların ümumi vətənidir". Bizi bir-birimizə bağlayan ideal yaxınlığı, mənəvi-əxlaqi prinsiplərdir. Möhtərəm prezidentimiz demişkən, "azərbaycanlı sözü bizi həmişə birləşdirib" [5, s.82].

"Dünyada nə qədər azərbaycanlı var?" sualına müxtəlif cavablar vermək mümkündür. Amma ən doğru cavab budur ki, dünyadakı azərbaycanlıların sayı Azərbaycanı müqəddəs Vətən sayanların sayı qədərdir [5].

Daha çox sinkretik, intellektual mədəniyyətlərin və dinin digər mənəvi laylarının, müxtəlifliyinin bütün mənəvi çalarlarını özündə cəmləşdirən vətəndaş hüquqları və azadlıqları barədə təlim kimi Azərbaycançılıq aşağıdakı prinsipləri elan edir [4]:

– insan dünyaya gəldiyi gündən hüquq və azadlıqlar ona məxsusdur. Hər bir bəşər övladının yaşamaq hüququ vardır və heç kəs onu bu hüquqdan məhrum edə bilməz;
– məhkəmə və qanun qarşısında hamı bərabərdir;
– dövlət sosial milli mənsubiyyətindən, dini əqidəsindən, yaşadığı yerdən asılı olmayaraq ümumi bərabərlik və azadlıqların qorunmasına zəmanət verir;
– hər bir adamım azadlıq və şəxsi şəxsi toxunulmazlıq hüququ vardır. Lakin bu hüquqlar konstitusiyalı quruluşu qoruyan qanunla məhdudlaşdırıla bilər;
– vətəndaşların seçib-seçilmək hüququ, habelə səs verdiyi deputatlar vasitəsilə dövlətin siyasi idarə olunmasında fəal surətdə iştirak etmək hüququ vardır;
– hər bir vətəndaşın öz milliyyətini, dini münasibətini müəyyənləşdirmək hüququ vardır;
– vətəndaşların mülkiyyət hüququ, habelə həmin mülkiyyətin varislik hüququnun qorunmasına dövlət qanunları ilə təminat verilir;
– hər bir vətəndaşın əmək, fikir, və söz azadlığı hüququ, həmçinin müstəqil, azad surətdə peşə və ixtisas seçmək hüququ vardır;
– hər bir vətəndaşın mənzili toxunulmazdır;
– hər bir vətəndaşın öz dilində danışmaq və həmin dildə təhsil almaq hüququ vardır;
– hər bir vətəndaşın tibbi yardım, təhsil almaq, vəkil yardımı da daxil olmaqla hüquqi məsləhətdən istifadə etmək hüququ vardır;
– vətəndaşların hüquq və azadlığının müdafiəsi qanunla təmin olunur;
– demokratik cəmiyyətin qanunu Azərbaycan Respublikası vətən-

daşlarının bütün hüquq və azadlıqlarının meyarıdır.

Beləliklə, Azərbaycançılıq təliminin mahiyyəti aşağıdakılardan ibarətdir:

Qəbul olunmuş qanunvericiliyə müvafiq olaraq tarixən dövlət kimi qərarlaşan, bu ərazidə yaşayan hər bir adam irqindən, cinsindən, milliyyətindən asılı olmayaraq Azərbaycan vətəndaşı hesab olunur və demokratik dövlətin bütün hüquqlarından istifadə edir. Dünya dinlərinin yüksək mədəniyyətinin mənəvi varisliyini özündə cəmləşdirən çoxmilyonlu sakinlərdən biri kimi azad respublikanın hər bir vətəndaşı öz mənəviyyatını Azərbaycan iftixarından ayırmır. Hər kəs öz şəxsi mənafeyi naminə bu suverenliyə, mənəvi bağlılığa, dostluğa xələl gətirərsə, Azərbaycanın şərəfini alçaldarsa, ona bu məmləkətdə yer yoxdur [4].

## NƏTİCƏ

Milli-dövlət ideologiyası kimi "azərbaycançılıq" bu gün bizim qarşımızda dəqiq ifadə edilmiş ideya kimi durur. Özünü dərk etməyən xalqın Vətən idealı ola bilməz. Torpaq, ərazi o zaman vətənə çevrilir ki, o milli ideyanın maddi təzahürlərinə çevrilmiş olsun.

"Azərbaycançılıq" ideologiyası xalqımızın əzab-əziyyətlə qazandığı tarixi sərvətdir. O, real müstəqilliyə nail olmaq, bölünməz, vahid Azərbaycanı qoruyub saxlamaq və möhkəmləndirmək üçün vasitədir. Bu gün "azərbaycançılıq" milli həyatın, konfessiyaların harmoniyasının çoxəsrlik ənənəsi, ölkədə yaşayan bütün millətlərin və etnik qrupların qardaşlığı, qarşılıqlı əlaqə və təsirinin tarixi, onların ümumi taleyi və müstəqil Azərbaycanın bütövlüyü uğrunda birgə mübarizəsinin tarixi təcrübəsidir. O, Azərbaycan xalqının dövlətyaradıcı mənafelərinin ümumiliyidir. Bu halda ki, qədim mədəniyyət qaynaqlarından və tarixdən gələn ənənələrə mənsubluq bütün həmvətənlərimizin rifahı naminə dövlətin mövcud olmasının əsasını təşkil edir, deməli, bu dövlət mənafelərinin mexaniki məcmusu deyil, əksinə, ümumi mənafelərin təcəssümüdür. O mənafelərin ki, vətəndaşlar bunların naminə nəinki öz mülkiyyətini, həm də həyatlarını qurban verməyi bacarmalıdırlar.

**Ədəbiyyat:**


1. Əsgərov Z., Nəsirov E., İsmayılov M. Azərbaycan Respublikasının Konstitusiyası və hüququnun əsasları. Bakı: 2005.
2. Xəlilov S. Heydər Əliyev və Azərbaycançılıq məfkurəsi. Bakı: 2002.
3. Mehdiyev R. Tarixi idrakın elmiliyi problemlərinə dair. Bakı: 2013.
4. Mustafayev R. Azərbaycan dövlətçiliyi. Bakı: 1995 (2014).
5. Orucov. H. Heydər Əliyev və Azərbaycanda milli siyasət. Tbilisi: 2003.
6. Piriyev A. Siyasi strategiya və milli təhlükəsizlik. Bakı: 2005.
7. Qədirova R., Babayeva T. Milli və vətəndaşlıq identikliyinin tədqiqi istiqamətləri. // Psixologiya Jurnalı, №2, 2016.
8. https: // ru.m. wikipedia. org/wiki
9. https: // sesqazeti.az/news/mia/192873.htm


## AZERBAIJANIISM AS A BASIS FOR THE FORMATION OF CIVIL IDENTITY

**Irada Teymurova**


**ABSTRACT**

Building a civil society requires the existence of a state ideology, the national idea becomes a real fact on the basis of more sustainable, stable and literary values by effectively using the maneuvering opportunities of the state ideology.

The idea of the homeland, the idea of citizenship, the idea of the republic are the objects of modern serious thinking. This is the topic that needs to be discussed by identifying development options.

For this reason the analysis of the idea of “azerbaijaniism” and its role in the development and formation of a commoncivil identity are especially relevant.



AMEA, Fəlsəfə və Sosiologiya İnstitutunun Sosial psixologiya şöbəsinin iclasında müzakirə edilərək çapa məsləhət görülmüşdür (protokol №3).

Rəyçi Ə.H.Əlizadə, psixologiya elmləri doktoru, professor

Məqalə redaksiyaya 12 yanvar 2022-ci ildə daxil olmuşdur.

UOT: 159.9

# UŞAQLARDA PEŞƏKAR "MƏN" KONSEPSİYASININ FORMALAŞMA MƏRHƏLƏLƏRİ

**Pərviz Kazımov**

*Bakı Dövlət Universiteti*
*Zahid Xəlilov küçəsi 33, indeks: AZ 1148*
*E-mail: parvizkazimov@gmail.com*

***Açar sözlər:*** *Peşəkar "Mən" konspesiyası, "Mən" konsepsiyası, koqnitiv inkişaf, koqnitiv komponent, emosional komponent, özünüqiymətləndirmə, özünəinam, özünüdərk, davranış komponenti, uyğunlaşma, karyera*
***Keywords:*** *Professsional self-concept, self-concept, cognitive development, cognitive component, emotional component, self-assessment, self-confidence, self-awareness, behavioral component, adaptability, career*

## GİRİŞ

İnsan özünü bir fərd kimi dərk etdiyi andan etibarən "mən kiməm?" sualına cavab axtarır və əldə etdiyi cavablar əsasında özünün "Mən" anlayışını formalaşdırır. Uşaq yaşa dolduqca yaşadığı mühitin ona verdiyi rollara və üzərinə qoyduğu tələblərə uyğunlaşmağa çalışır və öz emosiyalarını müşahidə edərək ətrafa və özünə münasibət formalaşdırır, maraq və bacarıqlarını kəşf edir. Bu proses nəticəsində onun "Mən" konsepsiyası formalaşır. "Mən" konsepsiyası hər bir şəxsin özünün davranışları, bacarıqları, dəyərləri və digər xarakterik cəhətləri barədə inamlarının məcmusudur. *R.Burnsün* nəzəriyyəsinə görə "Mən" konsepsiyası şəxsin özünə yönəlmiş münasibətlərinin məcmusudur və onun strukturu koqnitiv ("Mən" obrazı), emosional (özünüqiymətləndirmə) və davranış komponentlərindən ibarətdir. (Белинская, Тихомандрицкая, 2009). Özünütəsnif nəzəriyyəsinin banisi *John Turnerə* görə "Mən" konsepsiyası fərdi və sosial səviyyələrdən ibarətdir. Bir şəxsin özünü qiymətləndirməsi onun özünün və başqalarının onu qavraması ilə əlaqədardır (Guimond, Armand; Martinot, Crisp, Redersdorff, 2006). İnsanlar üçün yüksək dərəcədə ixtisaslaşmış funksiyaların müəyyən olunduğu müasir cəmiyyətdə fərdin sahib olduğu peşə, bu peşənin sosial-iqtisadi sistem-

dəki əhəmiyyəti və eləcə də həmin şəxsin peşəkar səmərəliliyi onun "Mən" konsepsiyası ilə sıx əlaqədardır. *Savickasın* (2005) fikrincə, peşələr sabit əxlaqi mənaları inkar edən və şəxsiyyətləri parçalayan postindustrial cəmiyyətdə yaşayan insanlara irəliləmək üçün yol təqdim edir və dolayısıyla peşəkar karyera fərdlərə bir intizam çərçivəsində fəaliyyət göstərmək və öhdəliklərini qəbul etməklə öz sabit "Mən"lərini qurmaq, sınamaq və həyata keçirmək üçün bir yol açır; uğurlu karyera qurmaq insanın müasir cəmiyyətdə özünün xəyal etdiyi həyatı yaşaması və bu şəkildə həm özünün, həm də başqalarının dəyər verdiyi insana çevrilməsi deməkdir. Buna görə də hər bir fərdin öz xüsusiyyətlərini və bacarıqlarını kəşf etməsi, onları müvafiq peşə və ya karyeralarla əlaqələndirməsi, peşəkar hədəflər qoyması və müvafiq davranışlar göstərməklə o hədəflərə nail olması müasir sosial-iqtisadi sistemdə öz optimal yerini tapması baxımından mühüm əhəmiyyətə malikdir (Cahill & Furey, 2017).

Peşə və karyeranın şəxsiyyətin formalaşması və mənəvi-psixoloji inkişafı baxımından əhəmiyyəti "Mən" konsepsiyasının bir növü kimi peşəkar "Mən" konsepsiyası anlayışının meydana çıxmasına səbəb oldu. Peşəkar "Mən" konsepsiyası ilk dəfə elmi ədəbiyyata 1949-cu ildə *Donald Super* tərəfindən daxil edilib. Onun fikrincə, peşəkar "Mən" konsepsiyası fərdin peşəkar baxımdan əhəmiyyətli olaraq qəbul etdiyi özünüdərk xüsusiyyətlərinin məcmusudur (Super, 1963). O, bu anlayışla əlaqədar ənənəvi şəxsi keyfiyyətlərlə yanaşı, özünüqiymətləndirmə, aydın düşüncə, əminlik, stabillik və reallıq duyğusu kimi amilləri də müzakirəyə açıb (Rikel, 2011).

Ümumiyyətlə müasir sosial-iqtisadi sistemə inteqrasiya olmağa şərtlənmiş insan öz "Mən"ini peşəkar fəaliyyətdən və karyeradan ayrı təsəvvür edə bilməz. *Gottfredson* (1981) karyera inkişafını insanın "Mən" konsepsiyasını praktikada reallaşdırması prosesi kimi görür. Onun fikrincə, peşə meyilləri və seçimləri çox vaxt insanın özü barədə təsəvvürləri və özünün effektiv ola biləcəyi fəaliyyətlər barədə fikirləri ilə üst-üstə düşür.

Karyera inkişafının ömür boyu davam edən bir proses olduğu (Watson & McMahon, 2005; Magnuson & Starr, 2000), müvafiq olaraq onun ön şərtlərinin uşaq yaşlarda formalaşdığı (Porfeli, Hartung & Vondracek, 2008; Watson & McMahon, 2004) və karyera planlaşdırmasının, əslində, körpəlikdən başlayaraq formalaşan bir həyat bacarığı olduğu (Magnuson & Starr,

2000) artıq bir çox tədqiqatçı tərəfindən qəbul olunur. Bu baxımdan *Erikson*, *Piaget* və *Vygotskynin* təmsil etdiyi uşaq inkişafı nəzəriyyəsi ilə *Super* və *Gottfredsonun* təmsil etdiyi karyera inkişafı nəzəriyyəsinin qarşılıqlı əlaqədə nəzərdən keçirilməsi daha məqsədəuyğun hesab olunur (Magnuson & Starr, 2000).

Tədqiqatlara əsasən effektiv karyera planlamasına daxil olan bir sıra alt-bacarıqlar, məlumatlılıq və araşdırma qabiliyyəti, qərarlara təsir edən digər fərdi amillər (Magnuson & Starr, 2000), peşəkar fəaliyyətdə əhəmiyyətli rol oynayan və peşəkar “Mən” konsepsiyasının mühüm elementləri olan özünəinam, çətinliklərə sinə gərmək kimi xüsusiyyətlər (Cahill & Furey, 2017) məhz kiçik yaşlarda formalaşır və ya mənbəyini məhz erkən yaşlarda yaşanmış təcrübələrdən alır. Uşaq yaşlarda müsbət sosial mühitdə yaxınların mənəvi dəstəyi və müsbət rol modellər qeyd olunan amillərə ciddi təsir edirlər.

Beləliklə də, yeniyetmə yaşda karyera düşüncələrinin inkişafı və sonrakı mərhələdə iş həyatının araşdırılmasının çıxış nöqtəsi əslində uşaq yaşda formalaşan fikirlər olduğu üçün uşaqların peşələrlə əlaqədar meyil və fikirlərinin inkişafının daha geniş öyrənilməsi zəruridir (Howard & Walsh, 2011). Tədqiqatlar göstərir ki, uşaqlar artıq 4 yaşından etibarən müxtəlif peşə növlərinin özlərinə uyğunluğu haqqında fikirlər qurmağa və mühakimələr yürütməyə başlayırlar (Trice & Rush, 1995). *Schultheiss* (2008) isə hesab edir ki, uşaqların iş davranışlarını tədqiq edənlər bu davranışların kökünü onların yaşadığı mühitdə, xüsusən ailə, icma və məktəbdə axtarmalıdırlar.

*Palladino* və *Stead* (2004) dördüncü-altıncı sinif uşaqlarının karyera inkişafını ölçmək üçün nəzəri cəhətdən əsaslandırılmış psixometrik şkala yaratmaq üçün *Superin* irəli sürdüyü doqquz meyarı – maraq, araşdırma, məlumat, əsas fiqurlar, maraq sahələri, nəzarət lokusu, zaman perspektivi, “Mən” konsepsiyası və planlılığı əsas konseptual baza götürməyi təklif edib.

Bu məqalədə peşəkar “Mən” konsepsiyasının və karyera meyillərinin kiçik yaşlardan etibarən formalaşma dinamikası nəzərdən keçirilir, bu sahədə həyata keçirilmiş elmi tədqiqatların nəticələri təhlil olunur.

**Peşəkar “Mən” konsepsiyası və meyillərin formalaşma mərhələləri**

*Linda Gottfredsonun* (1981) Daraltma və Uzlaşdırma nəzəriyyəsinə əsasən insanın peşə meyillərinin formalaşması dörd mərhələdə baş verir:

3-5 yaş arasında uşaqlar yetkinlik fikrini qavrayır və öz meyillərini ölçü və gücə yönəlmələrinə əsaslanaraq məhdudlaşdırırlar.

6-8 yaş arasında istəklər və seçimlər cinsiyyətə əsaslanaraq məhdudlaşdırılır.

9-13 yaş arasında istəklər və seçimlər mənsub olduqları sosial sinif anlayışları əsasında məhdudlaşdırılır.

14 yaşından başlayaraq gənclər öz unikal "Mən" anlayışına yönəlirlər və özlərinin "Mən" konsepsiyası ilə ziddiyyət təşkil edən peşələri öz seçimlərindən istisna edirlər.

Kiçik yaşlardan uşaqlar öz gələcəklərini bir sıra mümkün rollarda təsəvvür edirlər. Onlar gələcəklə bağlı ümidlərini və xəyallarını ifadə edir və onları sınaqdan çıxarırlar. Uşağın öz gələcək həyatı ilə əlaqədar xəyalları və meyilləri bir tərəfdən təhsil və mühit kimi xarici amillərin, digər tərəfdən özünüdərk, təcrübə, maraq, dəyərlər və bacarıqlar kimi daxili amillərin təsirinə məruz qalır, davamlı olaraq dəyişir və formalaşır. Müxtəlif peşələri araşdırarkən uşaqların yaşadıqları təcrübələr və aldıqları geri bildirimlər zamanı hiss etdikləri emosiyalar onların gələcək peşə seçimlərinə təsir edir (Patton, Porfeli, 2007). Həyəcan və ya məmnunluq kimi müsbət emosiyalar uşaqların konkret peşə ilə əlaqədar obyekt və vəziyyətləri tədqiq etməyə davam etməsinə, iyrənmə və ya utanma kimi mənfi emosiyalar isə bu obyektlərdən uzaqlaşmasına səbəb ola bilər. Qeyd olunan proses nəticəsində uşaq "mən kiməm sualına?" cavab axtarmaqla yanaşı, topladığı təcrübə əsasında şüurlu və ya şüursuz şəkildə öz "Mən"ini yaradır (Herr, Cramer, & Niles, 2004). Burada peşəkar "Mən" konsepsiyasının əhəmiyyəti ondan ibarətdir ki, insan öz "Mən"ini yaşadığı mühit, cəmiyyət və dünya ilə qarşılıqlı münasibət şəraitində formalaşdırır, müasir dünya isə bilindiyi kimi, hər şeydən öncə, peşəkar funksiyalardan ibarət münasibətlər sistemidir.

**Koqnitiv inkişaf və peşəkar meyillər**

*Erikson*, *Vıqotski* və *Piaje* kimi müəlliflər tərəfindən irəli sürülən inkişaf nəzəriyyələrinə əsasən uşaqlıq dövrü fiziki, sosial, idraki və psixoloji baxımdan dramatik dəyişikliklərlə xarakterikdir. Uşaqlar sərbəstlik əldə edir, fiziki dəyişikliklərə uyğunlaşır, ailəsi, dostları, həmyaşıdları və başqaları ilə münasibət qurmağı öyrənir, özlərinin dəyərlilik və səmərəlilik duyğusunu inkişaf etdirir, idraki, sosial və psixoloji vəzifələri mənimsəyir.

Koqnitiv inkişaf nəzəriyyələri əsasən diqqəti fərdlərin ətraf dünya ilə bağlı anlayışlarını formalaşdırma prosesinə yönəltdiyi (Lerner, 2002) üçün, bu yanaşma uşaqların peşələrlə bağlı fikirlərinin inkişafını anlamaq baxımından da faydalıdır.

Belə ki, uşaqların peşə və karyera ilə əlaqədar fikirlərinin inkişafı yaşadıqları sosial mühitin təsirinə məruz qalmaqla yanaşı, onların koqnitiv inkişaf mərhələri ilə də paralellik təşkil edir. İnsanın yaşadığı mühitlə dinamik qarşılıqlı münasibətləri və bu münasibətləri tənzimləmə cəhtləri nəticəsində onun zehnində əvvəlki nisbətən sadə koqnitiv quruluşlardan yeni daha mürəkkəb quruluşlar yaranır (Lerner, Freund, De Stefanis, & Habermas, 2001).

Beləliklə, kiçik yaşlarda uşaqların ilkin müşahidələri əsasında onlarda peşəkar obrazlarla bağlı ilkin assosiativ fikirlər formalaşır. Bu mərhələdə onlar peşəkar obrazlara girməyə və müvafiq davranışları icra etməyə çalışırlar. Bu prosesdə yaşadığı emosiyalar onların müvafiq obrazlara ilkin qeyri-sabit münasibətinin formalaşmasına səbəb olur. Bir müddət sonra assosiativ fikirlər bacarıq və maraqların formalaşması, daha sonra isə konkret peşəyə sahib olmaq üçün zəruri addımların dərk olunması ilə dəqiqləşməyə başlayır. Orta təhsilin sonuna yaxın yeniyetmələr peşəkar inkişafın mürəkkəb, dinamik proses olduğunu anlayır və karyeraya münasibətdə daha realist yanaşma formalaşdırırlar. *Howard* və *Walsh* (2011) uşaq və yeniyetmələrin karyera anlayışlarının inkişafı prosesini hər biri iki səviyyədən ibarət üç mərhələyə ayırır – assosiasiya, ardıcıllıq və qarşılıqlı əlaqə. Yuxarıda qeyd olunduğu kimi, koqnitiv inkişafın erkən mərhələsində olan 3-4 yaşlı uşaqların peşələr barədə bilikləri assosiativ xarakter daşıyır (Howard & Walsh, 2011), belə ki, onlar valideynlərinin və əhəmiyyətli başqalarının iş rollarının fərqində olmaqla yanaşı, media, TV, kitablar, oyunlar və digər gündəlik həyat fəaliyyətləri və təcrübələri də daxil olmaqla, bir çox mənbədən karyera, iş və peşələr barədə məlumatların təsirinə məruz qalırlar, özlərini yaxın ətraflarındakı işçilərlə, məsələn, avtobus və ya yük maşını sürücülərilə, müəllimlərlə, həkimlərlə, ictimai işçilərlə, eləcə də valideynlərinin və digər ailə üzvlərinin peşələri ilə eyniləşdirirlər (Cahill & Furey, 2017). Onlar konkret peşəyə yiyələnmənin dəqiq mexanizmini anlaya və ciddi səbəb-nəticə əlaqələri qura bilməsələr də, onu bəzi zahiri əlamətlərlə (məsələn, polis geyiminə və ya həkim alətlərinə sahib olmaq), o cümlədən bariz bacarıq və ya istedadlarla əlaqələndirməyə başlayırlar (Howard & Walsh, 2011). Bununla yanaşı, onlar bu yaşda məsələn, oyuncaqları yığışdırmaq, paltarları təmiz saxlamaq, otağı təmizləmək, bağbanlıq işlərində böyüklərə kömək etmək və ev heyvanlarına baxmaq kimi özlərinin

məsuliyyət daşıdıqları işləri müzakirə edə bilərlər (Cahill & Furey, 2017). Koqnitiv inkişafın ilkin mərhələsindəki uşaqlar peşələr barədə assosiativ təsəvvürləri ilə öz öhdələrinə düşən işlərin icrası üçün lazımi xüsusiyyətlər arasında hələ əsaslı əlaqə qura bilməsə də, müstəqil şəkildə formalaşan bu iki amil gələcəkdə peşəkar meyil və maraqların formalaşmasına töhfə verəcək.

8–11 yaşlı uşaqlar kiçikyaşlılara nisbətən peşə ilə əlaqədar proseslərə təsir edən şəxsi və davranış amillərini və iş üçün xarakterik təhsil tələblərini daha yaxşı ayırd edirlər, hansı karyeranı və nəyə görə arzu etdiklərini aydın ifadə edirlər (Howard & Walsh, 2011; Phipps, 1995). Onlar gələcək karyera barədə danışarkan peşələrlə bağlı konkret işlərə diqqət yetirir, öz səbəb və motivasiyalarını təsvir edir, maraq və bacarıqlarını ifadə edə bilirlər (Schultheiss et al., 2005; Trice et al., 1995). *Howard* və *Walsh* (2011) bu mərhələni belə təsəvvür edir: "uşaqlar bir peşəyə sahib olmaq üçün zəruri proseslərin ardıcıllığını təsvir etməyi öyrənirlər. Bu proses əvvəlcə hər hansı karyeraya sahib olmaq üçün zəruri bacarıqlar, davranışlar, məktəbi bitirmək, ali məktəbə qəbul olmaq kimi kənardan müşahidə olunan və uşaq üçün hələ tam aydın olmayan mərhələlərin ardıcıllığını ehtiva edir. Daha sonra isə uşaqlar karyera seçimini insanın özünü konkret peşəyə və ya işə uyğunlaşdırmaq prosesi kimi təsvir etməyə başlayırlar. Bu vaxt onlar əsasən iş fəaliyyəti, iş yeri xüsusiyyətləri və şəxsi maraq və qabiliyyətləri nəzərə almağa çalışırlar. İş/karyera nailiyyətinin lazımi bacarıqları öyrənməkdən, eləcə də işi görmək üçün fiziki qabiliyyətdən asılı olduğunu başa düşürlər".

Yeniyetmə yaşda uşaqların peşə meyilləri daha da konkretləşməyə başlayır (Helwig, 2008). 8-ci sinif uşaqları ilə keçirilən araşdırmanın nəticələri göstərir ki, sosial mühitin təsiri ilə bu yaşlarda uşaqlarda cinsiyyətə uyğun peşələr haqqında təsəvvürlər formalaşır və yeniyetmələr özlərinin öz cinsiyyətinə uyğun hesab etdikləri peşələrdə daha səmərəli ola biləcəklərinə inanırlar (Ji, Lapan & Tate, 2004). 10-cu sinifdə uşaqlarda peşələrlə əlaqədar maraq, münasibət və bacarıq vurğusu stabilləşir. Əgər aşağı sinif şagirdləri karyerayla əlaqədar davranışlara daha çox diqqət yetirirsə, orta təhsil sona yaxınlaşdıqca şagirdlər karyeranın uzunmüddətli, dəyişən xarakterini, o cümlədən maraq, karyerada yüksəlmə və nəticələr kimi amilləri daha çox vurğulayırlar (Borgen & Young, 1982).

Qeyd olunduğu kimi uşağın koqnitiv qabiliyyətləri inkişaf etdikcə o,

ətraf mühit və qarşılıqlı əlaqələrlə bağlı daha mürəkkəb çoxşaxəli prosesləri və nüansları dərk etməyə başlayır və dünyanı da bu şəkildə təsvir edir. Beləliklə, peşə və karyera ilə əlaqədar anlayışın formalaşmasının son mərhələsində yeniyetmələr peşə seçmək və uğurlu karyeraya sahib olmaq üçün maraq, istək, bacarıq və istedad kimi fərdi keyfiyyətlərlə mövcud iş imkanları, rəqabət şəraiti kimi mühit şərtlərinin qarşılıqlı əlaqəsindən irəli gələn mürəkkəb və çoxşaxəli prosesləri anlamağa başlayırlar. *Howard* və *Walshın* fikrincə, (2011) bu mərhələdə yeniyetmələr hər hansı peşə və ya karyeraya sahib olmaq üçün zəruri fərdi keyfiyyətlər (bioloji və psixoloji), başqaları ilə qurulacaq ünsiyyət və peşənin xüsusiyyətləri və onu əldə etmək imkanları kimi amillərin arasındakı dinamik qarşılıqlı münasibətləri anlamağa və nəzərə almağa çalışırlar və zaman keçdikcə onların mülahizələri daha da mürəkkəbləşir və əmək bazarındakı vəziyyət və yeni iş imkanları yaratmaq kimi sistematik amilləri də əhatə etməyə başlayır. Bu mərhələni müəlliflər "sistematik qarşılıqlı münasibətlər" mərhələsi adlandırır.

Beləliklə, koqnitiv inkişaf nəzəriyyəsinə əsaslanaraq deyə bilərik ki, insanın peşəkar "Mən" konsepsiyasının formalaşması kiçik yaşda peşələrlə əlaqədar assosiativ fikirlərlə, özlərini nəzər dairəsinə düşən peşələrlə əlaqədar obraz və rollarda təsəvvür etmələri ilə başlayır. Zaman keçdikcə onların öz maraq və bacarıqlarını, özlərinin müəyyən peşələrə uyğunluğunu kəşf etmələri ilə inkişaf edir. Peşəkar mülahizələrin formalaşmasının son mərhələsində real mühit amilləri və bu mühitdə konkret peşəyə sahibolma imkanları və bacarıqları nəzərə alınır. Burada qeyd olunmalıdır ki, peşəyə sahib olmaq üçün real kənar şərtlərin dərk olunması peşəkar "Mən" konsepsiyasının həm mənfi, həm də müsbət istiqamətdə korreksiyasına səbəb ola bilər. Konkret mühitdə hər hansı karyera imkanı əldə etmək üçün "Mən" konsepsiyasına aid həlledici amilin çatışmazlığı digər amillərlə kompensasiya oluna bilər. Belə ki, hər hansı peşə ilə bağlı ali təhsil ixtisasına qəbul prosesində rəqabətdə məğlub olmaq hər hansı fənn, bilik və ya bacarıq sahəsində çatışmazlıqların qəbul olunması, israrlılıq, öz üzərində çalışmaq əzmi kimi ümumi "Mən" konsepsiyasının amillərilə kompensasiya oluna bilər. Arzu etdiyi ixtisası qazana bilməyən gənc israrla təkrar cəhd edə, özünə uyğun başqa və daha realist peşəkar hədəf qoya bilər. Real karyera təcrübəsi prosesində insan öz peşəkar "Mən" konsepsiyasını yenidən gözdən keçirərək karyeraya uyğunlaşa

və ya yenidən əvvəlki tərcihinə geri dönə və ya ona daha yaxın tərcihə yönələ bilər. Peşəkar "Mən" konsepsiyasının emosional və özünüdərk komponentləri aşağıda təhlil olunur. Qeyd olunan xarakterik cəhətlər isə əsasən ailə və sosial mühitdə formalaşır.




*Şəkil 1. Peşə meyillərinin formalaşmasının koqnitiv mərhələləri*

**Ailənin rolu**

Peşəkar "Mən" konsepsiyasının formalaşmasının koqnitiv inkişaf nəzəriyyəsi paradiqmasından təhlili bu prosesin universal xüsusiyyətlərinin anlaşılması baxımından nə dərəcədə vacib olsa da, ailə və sosial mühitin təsirini öyrənmədən prosesin fərqli cəhətlərini anlamaq mümkün deyil. Belə ki, hər bir şəxsin unikal "Mən" konsepsiyası, peşə və karyera meyilləri, bacarıqlarının formalaşması məhz onun ailəsi və yaşadığı sosial-iqtisadi mühitlə sıx əlaqədardır.

Sosial-koqnitiv karyera nəzəriyyəsinə əsasən (Lent, Brown & Hackett, 1994) bir şəxsin karyera seçiminə yaxın sosial mühit amillərilə yanaşı, karyera üçün zəruri xüsusiyyətlərin formalaşdığı daha əvvəlki mərhələlərə aid uzaq faktorlar da təsir edir. Buraya şəxsin karyera ilə əlaqədar öz-effektivlik duyğusu və nəticə gözləntilərinin formalaşmasında əhəmiyyətli rol oynayan öyrənmə təcrübələrinə təsir edən peşəkar rol modellər, karyeraya uyğun dərs və ya dərsdənkənar fəaliyyətlərlə əlaqədar gördüyü dəstəkləyici və ya ruhdansalıcı davranışları aid etmək olar.

*Whiston* və *Kellerin* (2004) fikrincə, uşaqlıqdan yetkin yaşa kimi davam edən şəxsiyyətin formalaşma dövrü boyunca valideynlərin peşəsi kimi ailə strukturu dəyişənləri və isti münasibət, dəstək, bağlılıq, sərbəstlik kimi mühit dəyişənləri uşaqların bir sıra karyera konstruktlarının formalaşmasına ciddi təsir edir ki, bu da öz növbəsində irq, cinsiyyət və yaş

kimi digər mühüm sosial amillərin təsirinə məruz qalır. Ailədəki münasibətlər, o cümlədən sevgi, qayğı, diqqət və dəstək kimi amillər uşaqların "Mən" konsepsiyasının özünəinam, özünüqiymətləndirmə kimi emosional komponentlərinin formalaşması üçün mühüm əhəmiyyət daşıyır. Digər tərəfdən, mühitdəki məlumat və nitq zənginliyi, söhbətlərin intellektual və emosional çalarları peşəkar assosiasiyaların, xəyalların, mülahizələrin xarakterinə və mürəkkəbliyinə təsir edən mühüm amillərdən biridir. Bütün bu amillər sosial-iqtisadi amillərlə qarşılıqlı əlaqədə formalaşır. *Gómez* və *Beachumun* (2019) fikrincə, uşaqların gələcək karyeraları ilə əlaqədar xəyalları peşə və karyeralarla əlaqədar öz sosial ətrafından aldıqları məlumatların təsiri ilə formalaşır, buna görə də yoxsul və məhdud məlumatlı mühitlərdə böyüyən uşaqların xəyalları da çox vaxt məhdud olur. *Gottfredsonun* (1981) təklif etdiyi model əsasında həyata keçirilmiş tədqiqatda müəlliflər yeniyetmə yaşlı uşaqların bacarıqları ilə yanaşı onların valideynlərinin sosial-iqtisadi statusunun da peşə meyillərinin formalaşmasına təsir etdiyini, peşə meyillərinin isə sonrakı mərhələdəki karyera uğurlarını proqnozlaşdırdığını müəyyən ediblər (Cochran, Wang, Stevenson, Johnson, Crews, 2011). Bəzi tədqiqatçıların fikrincə, insanlar öz cəhdlərinin mühitdə qarşılıq tapmayacağını və ya əngəllənəcəyini düşündükdə onların öz fərdi maraqlarını karyera hədəfinə çevirmə, daha sonra isə bu hədəflər əsasında müvafiq davranış və fəaliyyət formalaşdırma motivasiyası aşağı düşür, bunun əksinə müsbət sosial mühit qavraması müsbət zəncirvari reaksiyaya səbəb olur (Lent, Brown & Hackett, 2000). Beləliklə, demək olar ki, uşaqların yaşadıqları sosial mühitdə müşahidə yolu ilə öyrənmə vasitəsilə həyata qarşı formalaşdırdıqları fikir və münasibətlər və onların "Mən" konsepsiyasının emosional komponentinə təsiri nəticə etibarilə koqnitiv və davranış komponentlərinə təsir edir. Cənubi Koreyada həyata keçirilən tədqiqatın nəticələrinə əsasən ailələrin sosial-iqtisadi statusu gənclərin peşə istəklərinin formalaşmasında həm birbaşa, həm də dolayı rol oynayır və zaman geçdikcə bu amilin gənclərin peşə nailiyyətinə təsiri artır (Lee & Byun, 2019). Belə ki, müəlliflərin fikrincə, yüksəkstatuslu peşələrdə çalışan valideynlər aşağı statusda çalışanlardan fərqli olaraq öz övladlarına özgüvən və müstəqillik kimi dəyərləri ötürə bilirlər. Uşaqlar böyüdükdə öz dəyərləri və xarakterlərinə uyğun olan işlər axtarırlar. Beləliklə də, onlar öz valideynləri ilə oxşarlıq təşkil edən peşələrə

can atırlar. Valideynlərin işgüzar statusu, peşələrinə münasibəti, öz işlərində yaşadığı təcrübə və emosiyalar uşaqların ümumilikdə iş anlayışına münasibətinə və peşəkar meyillərinə təsir edə bilər. Bu amilin uşaqların peşəkar istəklərinə təsirini anlamaq üçün sosiallaşma prosesi ilə yanaşı, müşahidə yolu ilə öyrənmənin rolunu da diqqətdə saxlamaq lazımdır (Lawson, 2018). Bəzi tədqiqatçıların firkincə, işsiz valideynlər uşaqlarda işə münasibətdə neqativ emosiyaların baş qaldırmasına və onların öz emosiyalarını tənzimləmə qabiliyyətinin zəifləməsinə səbəb ola bilər (McLoyd, 1989). Bəzən isə elə olur ki, işsiz valideynlər hər hansı başqa mənbələrdən (məsələn, sosial müavinət, imkanlı qohumlar və s.) maddi tələbatlarını ödəyə bildiyi hallarda, işsizliyin verdiyi sərbəstlik və rahatlıq duyğusu ilə əlaqədar bu vəziyyətə münasibətdə müsbət emosiyalar ifadə edə bilərlər (Ek, Sovio, Remes, & Jarvelin, 2005). Bu tip hallar uşaqların iş və peşəkar fəaliyyətə münasibətdə mənasızlıq duyğusunu qidalandırar və peşəkar “Mən” konsepsiyasının həm koqnitiv, həm də emosional komponentinin korlanmasına səbəb olur ki, bu da onların gələcəkdə işsiz qalmasına yol aça bilər. Uşaqlar dünyaya, o cümlədən peşələrə öz valideynlərinin və əhəmiyyətli başqalarının gözü ilə baxdığı üçün (Lee & Porfeli, 2015), onların ənənəvi və ya qeyri-ənənəvi peşələrə meyil etməsində də ailə mühitinin emosional-informativ ünsürünün və valideynlərin peşələrə münasibətinin təsiri böyükdür. Belə ki, ABŞ-ın cənub ştatlarında həyata keçirilmiş tədqiqatda (Fulcher, 2011) gender, övladlarının bacarıqları və əmək bölgüsü məsələlərində qeyri-ənənəvi baxışlara malik olan anaların uşaqlarının qeyri-ənənəvi peşə meyillərinin yüksək olduğu müəyyən olunub. Bu əlaqə uşaqların qeyri-ənənəvi tapşırıqlara bacarıqları ilə müşayiət olunduğu müşahidə edilib ki, bu da müəyyən dərəcədə sosial-koqnitiv nəzəriyyənin doğruluğunu təsdiq edən göstərici hesab oluna bilər.




*Şəkil 2. Ailənin peşəkar "Mən" konsepsiyasının formalaşmasına təsiri*

**Emosional komponent**

Bu və ya digər fəaliyyət zamanı yaşanan emosiyalar xüsusən uşaq yaşda bu fəaliyyətə münasibət formalaşdırılması baxımından yüksək dərəcədə əhəmiyyətlidir. Belə ki, bu prosesdə uşaqlar emosiyalarından bir "mayak" kimi istifadə edir. Fərdi və qrup fəaliyyətləri zamanı yaşadıqları emosional təcrübələr uşaqların həm özlərinə, həm də həmin fəaliyyətlərə münasibətinin formalaşmasına təsir edir, dolayısıyla həm "Mən" konspesiyasının, həm də peşəkar meyillərinin müəyyən olunmasında iştirak edir.

Motivasiya sistemləri nəzəriyyəsinə (M.Ford, 1992) əsasən, motivasiyaya insanın fərdi hədəfləri, qabiliyyət inancları (öz bacarıqlarına inam), sosial kontekst inancları (mühitin fərdin ehtiyacı olduğu dəstəyi ona verməsi barədə inam) və emosional canlanma proseslərinin (enerjisini səfərbər etməyə və bölüşdürməyə yardım edən duyğular) qarşılıqlı əlaqəsindən ibarətdir. Qeyd olunan dörd dəyişənin tədris prosesində karyera uyğunlaşma nailiyyətlərini əhəmiyyətli dərəcədə proqnozlaşdırdığı (A.Hirschi, 2009), digər tərəfdən isə gender və irq faktoru ilə

birlikdə akademik nailiyyətlərə təsir etdiyi (M.Campbell, 2007) tədqiqatlarla müəyyən edilib. Qeyd olunan nəzəriyyənin üç komponenti – hədəflər, bacarıqlarla bağlı inam və emosional canlanma - uşaqların "Mən" konsepsiyasının əsas komponentlərini təşkil edir. Dördüncü komponent olan sosial kontekst inancları isə bu komponentlərin formalaşmasına bilavasitə və ya dolayı təsir edir. Belə ki, öz "Mən" konsepsiyasını uşaqlar ətraf mühitlə qarşılıqlı əlaqə zəminində formalaşdırır və mühitdən gələn dəstək və ya maneələr (valideynlər, müəllimlər, həmyaşıdlar) emosional oyanmaların yaşanması və özünə münasibət formalaşdırma baxımından mühüm əhəmiyyətə malikdir.

Uşaqlar böyüdükcə ətraf dünya ilə yanaşı özlərini də daha yaxşı dərk etməyə başlayırlar. Onlar ətraf mühitlə qarşılıqlı əlaqədə, o cümlədən müəyyən fəaliyyətlər nəticəsində, özlərini sınayır, başqaları ilə müqayisələr aparır və bu və ya digər fəaliyyətlərə münasibətdə öz emosiyalarını anlamağa çalışırlar. Bu proses nəticəsində onların özlərinə münasibəti formalaşır. Onlar bu prosesdə özlərinə zövq verən fəaliyyətləri müəyyən edir, öz bacarıqlarını sınayır və özləri barədə daxili fikirlər və emosiyalar formalaşdırırlar. Bu proses nəticəsində onlarda özünəhörmət və öz-effektivlik kimi konstruktlar formalaşır. Bandura (2012) özünəhörməti öz dəyərini qiymətləndirmə, öz-effektivliyi isə öz bacarıqlarını qiymətləndirmə kimi müəyyən edib. Ümumiyyətlə, uşaqların məktəb şəraitində özgüvəninə özlərində müşahidə etdikləri qeyri-adi xüsusiyyətlər, həmyaşıdları ilə münasibətləri, müəllimlərin münasibəti, ailədən irəli gələn özünəmünasibət və dərs və ya dərsdənkənar təcrübələri kimi amillər təsir edə bilər. Bu məsələdə təbii proseslərlə yanaşı müəllim və valideynlərin məqsədyönlü müdaxilələri müəyyən müsbət nəticələr verə bilər. Belə ki, bu yaşlarda uşaqların diqqətini onların güclü cəhətlərinə yönəltmək, zəif cəhətləri ilə əlaqədar fərdi pedaqoji əks əlaqələr qurmaq, onları araşdırmasına və inkişaf etdirməsinə imkan yaratmaq çox vacibdir.

Ümumiyyətlə, demək olar ki, uşaqlar böyüdükcə təbii olaraq öz qabiliyyətlərini daha yaxşı dərk edirlər. *Cahill* və *Fureyin* (2017) tədqiqatının nəticələrinə əsasən kiçik uşaqlar (beş və altı yaş) dərsdənkənar məşğələlərdəki qabiliyyətlərinə münasibətdə daha nikbin və həvəslidirlər və özlərinin müxtəlif qabiliyyətlərini (idman, musiqi və s.) çox yüksək qiymətləndirirlər. Nisbətən böyük uşaqlarda (doqquz və on yaş) isə bu ehtimal daha aşağıdır. Bö-

yüklər kiçiklərlə müqayisədə daha realistdirlər. Fərqli fəaliyyət və maraqların ilkin araşdırılmasından sonra, uşaqlar öz seçimlərini azaldırlar və daha çox zövq verən məşğuliyyətlərə meyillənirlər. Bəzən seçimi daxili motivasiya müəyyən edir, bəzən isə dostları onlara təsir edir. Buna görə də, uşaqlar çətinliklər və məyusluqlar yaşadıqca qabiliyyətlərinə daha çox şübhə ilə yanaşırlar.

Elmi ədəbiyyatın təhlili göstərir ki, dərs prosesindəki nizam-intizamlı mühitdən fərqli olaraq sərbəst şəraitin hökm sürdüyü, emosiyaların və fərdi xüsusiyyətlərin daha rahat ifadə edildiyi uşaqların iştirak etdiyi dərsdənkənar, məktəbdənkənar fəaliyyətlər, oyunlar, asudə vaxt məşğuliyyətləri və ya hobbilərin təsiri nisbətən yuxarı yaşlarda da davam edə və peşəkar "Mən" konsepsiyasının formalaşmasına, dolayısıyla sonrakı təhsil, sosial və karyera seçimlərinə təsir edə bilər. Kanadada həyata keçirilən araşdırmada iştirak edən valideynlərin fikrincə, dərsdənkənar fəaliyyətlərin övladlarına təsiri ömür boyu sürür. Onların fikrincə, komanda işi, sosial bacarıqlar, fiziki inkişaf, özünəhörmət və özünəinam məhz bu fəaliyyətlər zamanı formalaşır (Cahill & Furey, 2017). Dolayısıyla bu mərhələdə valideyn və müəllimlərin dəstəkləyici müdaxiləsi əhəmiyyətlidir. Xüsusən sosial-iqtisadi statusu aşağı ailələrdə böyümüş və ya ailəsindən hər hansı səbəbdən kifayət qədər dəstək ala bilməyən uşaqların özünə və öz bacarıqlarına inamının formalaşması baxımından bu mərhələdə müəllimlərin rolu böyük ola bilər. Uşaqlar davamlı olaraq ətraflarını müşahidə edir və gündəlik qərarlarında və problemlərin həllində böyüklərin və həmyaşıdlarının davranışlarını təkrar edir, hətta onları yamsılayırlar. Bəzən çətin vəziyyətlərə düşəndə və ya arsenallarındakı (ailədə formalaşmış) davranış modelləri düzgün həll yolu tapmaq üçün kifayət etməyəndə onlar özlərini zəif hiss edə, mübarizə əzmləri sarsıla bilər. Bu tip hallarda böyüklərin, o cümlədən ailələrin və müəllimlərin dəstəyi onların dayanıqlılığını artırmaq, özünəinamını gücləndirmək üçün mühüm əhəmiyyət daşıyır.

Peşəkar "Mən" konsepsiyasının formalaşmasının ilkin mərhələlərində emosional komponentin çəkisinin, koqnitiv komponentə nisbətən daha yüksək olduğunu irəli sürmək olar. İnsan yetkinləşdikcə koqnitiv komponentin çəkisi artır. Lakin uşaq yaşda peşəkar çalarlı fəaliyyətlər zamanı yaşanan təcrübələr və başqalarından gələn əks-əlaqələrin yaşatdığı emosiyalar koqnitiv və davranış komponentinin formalaşmasına təsir edir.




*Şəkil 3. Emosional komponentin formalaşmasına təsir edən amillər*

**Koqnitiv komponent – özünüdərk**

Özünüdərk "Mən" konsepsiyasının koqnitiv komponentlərinin formalaşması baxımından xüsusi əhəmiyyətə malikdir. Peşəkar "Mən" konsepsiyasına münasibətdə özünüdərkin iki aspektini – öz mənsubiyyətinin dərk edilməsi və öz bacarıqlarının dərk edilməsinə nəzər salmaq vacibdir. *Gottfredsonun* (1981) Daraltma və Uzlaşdırma nəzəriyyəsində qeyd olunduğu kimi uşaqlar böyüdükcə öz seçimlərini əvvəlcə cinsiyyətə, mənsub olduqları sosial sinifə və nəhayət, son olaraq öz fərdi xüsusiyyətlərinə - "Mən" anlayışlarına əsasən daraldırlar. Onlar özlərini kim olaraq qəbul etmələri əsasında öz karyera istəklərini və seçimlərini məhdudlaşdırırlar. Bəzi tədqiqatlar göstərir ki, uşaqlar artıq 4 yaşdan etibarən öz cinsiyyəti ilə assosiasiya olunan peşələrə meyillənirlər və bu vaxt qızlar oğlanlara nisbətən daha geniş spektrli peşələrə meyil edirlər və peşəkar istəkləri daha yüksəkdir (Trice & Rush, 1995).

Özünüdərk "Mən" konsepsiyasının, eləcə də peşə meyillərinin formalaşması baxımından mühüm komponentdir, belə ki, cinsi xisusiyyətlə bağlı özəlliklərin və sosial mənsubiyyətin dərki bu konstruktların xarakterinə əhəmiyyətli təsir edir. Növbəti mərhələdə fərdi "Mən" anlayışı formalaşsa da, cinsi və sosial özünüdərk amillərinin təsiri tamamilə itmir. Bu amillərin ümumi və peşəkar "Mən" konsepsiyasındakı çəkisi zaman keç-

dikcə yaşanan təcrübələrin təsiri ilə arta və ya azala bilər. Məsələn, bəzi tədqiqatçılar uşaqların öz-effektivlik düşüncələri ilə onların ənənəvi gender əsaslı peşəkar seçimlərinin üst-üstə düşdüyünü qeyd edir. Başqa sözlə desək, karyera seçimində gender fərqlərinin təhlilləri uşaqların öz bacarıqları barədə inamlarının ənənəvi karyera seçimlərini şərtləndirdiyini göstərir (Bandura, Barbaranelli, Caprara & Pastorelli, 2001).

Qeyd olunanlarla yanaşı, uşaqların öz qabiliyyətlərini və maraqlarını dərk etməsi də sağlam peşəkar "Mən" konsepsiyasının formalaşması baxımından əhəmiyyətlidir. Bəzi tədqiqatçının fikrincə, insanların bir çox peşəkar xüsusiyyətlərinin formalaşması onların uyğunlaşma qabiliyyəti ilə sıx əlaqədardır.

Peşə kontekstində özünüdərk çox vaxt elə öz maraqlarını və qabiliyyətlərini dərk etmək mənasını ifadə edir (Cahill & Furey, 2017). Bu mərhələdə uşaqlarda müşahidə olunan bacarıqların, müsbət xarakterik cəhətlərin vurğulanması və onların müvafiq peşələrlə əlaqələndirilməsi özünəinam və müəyyən fəaliyyət növlərinə münasibətdə öz-effektivlik duyğusunu möhkəmləndirdiyi kimi, müvafiq peşələrə maraq yarada və adekvat peşəkar "Mən" konsepsiyasının qurulmasına töhfə verə bilər. Məsələn, *Magnuson və Starr*-ın (2000) fikrincə, yaradıcılıq qabiliyyətinin inkişafı, real problemlərin həlli yollarının axtarılması, yenilikçi fikirlərin formalaşdırılması və ilk baxışda əlaqəsi olmayan fikirlər arasında əlaqəqurma qabiliyyəti mühəndislik təfəkkürünün inkişafı üçün zəruri amillərdir. Bu qabiliyyətlərin vurğulanması həm uşaqlarda müsbət emosiyaların yaranmasına, özünəinamın artmasına (emosional komponent), həm də bu qabiliyyətlərin əhəmiyyətli olması barədə fikirlərin yaranmasına (koqnitiv komponent) səbəb ola bilər ki, bu da onların bu bacarıqlarla əlaqədar davranışlarını stimullaşdıra və onları davam etdirmələrinə (davranış komponenti) və təkmilləşdirmələrinə səbəb ola bilər. Bu isə, öz növbəsində, gələcəkdə uşaqların konkret peşələrə münasibətdə öz-effektivlik anlayışını gücləndirə və onların şüurlu seçimetmə ehtimalını artıra bilər. Banduranın rəhbərliyi ilə həyata keçirilən tədqiqatın nəticələrinə əsasən uşaqların özlərinin akademik, sosial və özünütənzimləmə effektivliyi ilə əlaqədar düşüncələri həm birbaşa, həm də akademik meyillərə təsirləri vasitəsilə özlərini peşə fəaliyyəti növlərində səmərəli hesab etmələrinə təsir göstərir və nəticə etibarilə peşəkar effektivlik düşüncələri, uşaqların peşə meyillərində, eləcə də hansısa peşələri özlərinə uyğun hesab etmə-

mələrində istiqamətləndirici rol oynayır. (Bandura, Barbaranelli, Caprara & Pastorelli, 2001). Qeyd olunan tədqiqatçılar belə bir qənaətə gəliblər ki, uşaqların peşəkar effektivlik düşüncələrinin formalaşmasına onların real akademik nəticələrindən daha çox öz bacarıqları barədə inamları təsir edir. Beləliklə, müəllimlər şagirdlərin özləri barədə müxtəlif peşələrə münasibətdə inamlarını ifadə etmələrinə imkan yaratmalı (Magnuson & Starr, 2000) və uşaqların qərar qəbul etmələri, təhsil və karyera məqsədləri ilə bağlı seçim etməklə əlaqədar anlayışlarını stimullaşdırmalıdırlar.

**Davranış komponenti – uyğunlaşma bacarığı**

"Mən" konsepsiyasının emosional və koqnitiv komponentləri müvafiq davranışlarla qarşılıqlı əlaqədə tədqiq olunmalıdır. Belə ki, istənilən peşəkar fəaliyyət əsasən davranışlar sisiləsindən ibarətdir. Şübhəsiz kiçik yaşlı uşaqların, sözün əsl mənasında, peşəkar davranışlar göstərməsi mümkün deyil. Əsasən zahiri təzahürlərin imitasiyasından ibarət oyunların gələcək peşəkar davranışların xəbərçisi olmasını iddia etmək düzgün olmazdı. Lakin bəzi davranışlar var ki, onları peşəkar əhəmiyyətli davranışların formalaşmasının ön şərti kimi nəzərdən keçirmək mümkündür. Bir sıra tədqiqatçılar uşaqlarda inkişaf edən uyğunlaşma bacarığının karyera meyilləri və özünüqiymətləndirmə baxımından əhəmiyyətini qeyd edirlər. Super (1997) və Savickas (1991) karyera inkişafının əsas komponentləri olan qərar qəbuletmə və problem həlletmə bacarığının tərkib hissəsi kimi uyğunlaşma bacarığı və elastikliyin əhəmiyyətini vurğulayır. Onların fikrincə, erkən uşaqlıq yaşlarında cücərməyə başlayan uyğunlaşma və elastiklik orta uşaqlıq və yeniyetməlik dövründə də bəslənməlidir. Uşaqların dəyişikliyə reaksiyası, gündəlik həyatda qərarqəbul etmə və problem həlletmə davranışları onların gələcək şəxsiyyətinə və dolayısıyla karyera uğurlarına təsir edəcək.

Şübhəsiz, peşəkar inkişaf və ya karyera inkişafına təsir edən bir sıra amillər var və müxtəlif insanlar bu məsələyə fərqli nöqteyi nəzərdən yanaşa bilərlər. Lakin uyğunlaşma bacarığı məsələyə fərqli nöqtələrdən baxarkən ortaya çıxan mürəkkəbliyi birləşdirən konstrukt olaraq nəzərdən keçirilə bilər və bu baxımdan karyeraya uyğunlaşma inkişaf perspektivi baxımından karyera yetkinliyindən daha əhəmiyyətli hesab olunmalı və inkişaf meyarları ilə konseptuallaşdırılmalıdır (Savickas,1997).

Savickas uyğunlaşma qabiliyyətini təhsil və karyera prosesində insanın qarşısına çıxan vəzifələrin və seçimlərin öhdəsindən gəlməyə ha-

zırlıq kimi müəyyən edib. Onun modeli dörd komponentdən ibarətdir: i) gələcəklə əlaqədar qayğı; ii) öz həyatına nəzarət; iii) peşə və işə maraq; və iv) gələcəyi qurmaq və çətinliklərin öhdəsindən gəlmək bacarığına inam.

Uşaqlar böyüdükcə onların özlərini və ətrafı qavraması da dəyişir ki, bu proses də davamlı olaraq yeni şərtlərin yaranması və yeni reallığa uyğunlaşma ehtiyacı yaradır. Yeni şəraitə uyğunlaşma ehtiyacı və onun nəticəsi uşağın özü barədə fikir və inamlarının möhkəmlənməsi, zəifləməsi və ya yeni inamlar yaratmasına səbəb ola bilər. Uğurlu uyğunlaşma öz həyatına nəzarət duyğusu və öz bacarıqlarına inamı gücləndirir və bu, uşaq böyüdükcə onda baş qaldıran gələcək qayğısı və peşə marağı ilə birlikdə karyera istiqamətində addımların atılmasına gətirib çıxaracaqdır.

## NƏTİCƏ

Beləliklə, uşaqlarda peşəkar "Mən" konsepsiyası hələ tam formalaşmasa da, ümumi "Mən" konsepsiyası, peşə meyilləri və maraqlarının timsalında onun təməli formalaşmağa başlayır. Erkən yaşlarda emosional komponent aparıcı rol oynasa da, uşaq böyüdükcə koqnitiv komponentin çəkisi artmağa başlayır. Uyğunlaşma bacarığı şəklində təzahür edən davranış komponenti əsasən emosional komponentlə qarşılıqlı təsir şəraitində inkişaf edir. Uşaqlar peşəkar fəaliyyətin astanasına əsasən öz iradəsindən kənar mühitin və genetik amillərin təsiri ilə topladıqları emosional və koqnitiv resurs, eləcə də davranış vərdişləri ilə yaxınlaşırlar. Ailə mühiti, valideynlərin, tərbiyəçi və müəllimlərin təsiri və ya məqsədyönlü yönləndirmələrinin nəticəsi məhz bu mərhələdə özünü göstərir. Sosial-iqtisadi amillərlə yanaşı, əmək bazarı və peşələr barədə təsəvvürləri, öz bacarıq və istəkləri barədə aydın obyektiv fikirləri, eləcə də özünəinam və dəyərlilik duyğusu onların start vəziyyətini müəyyən edir. Bu komponentləri neqativ xarakter daşıyan və ya tam formalaşmamış gənclərin peşəkar uğurqazanma ehtimalı çətinləşir. Bu mərhələdən sonra gənclər özlərini və əmək bazarını təhlil etməklə özlərinə fəaliyyət istiqaməti müəyyən etməyə çalışırlar. Verdikləri qərarlar, etdikləri cəhdlər və aldıqları geri bildirimlər əsasında özlərini təkrar-təkrar təhlil edərək öz peşəkar "Mən" konsepsiyalarını formalaşdırırlar. Bəzilərində bu proses nisbətən sürətlə getsə də, digərlərində orta yaşlara qədər davam edə bilər. Sağlam və dəqiq peşəkar "Mən" konsepsiyası və ya onu formalaşdırma bacarığı insanın həyatda öz təyinatını tapmasının əsas şərti kimi çıxış edir.

**Ədəbiyyat:**


1. Bandura, A. (2012). On the functional properties of perceived self-efcacy: Revisited. Journal of Management, 38(1), 9-44.
2. Bandura, A., Barbaranelli, C., Caprara, G., & Pastorelli, C. (2001). Self-efficacy beliefs as shapers of children's aspirations and career trajectories. *Child development, 72 1*, 187-206 .
3. Borgen, W. A., & Young, R. A. (1982). Career perceptions of children and adolescents. Journal of Vocational Behavior, 21, 37-49.
4. ***Cahill**, **M. & Furey**, **E. 2017.*** The Early Years - Career Development for Young Children: A Guide for Educators. Toronto
5. Campbell, M. (2007), Motivational Systems Theory And The Academic Performance Of College Students, *Journal of College Teaching & Learning*, Volume 4, Number 7
6. Cochran, D. B., Wang, E. W., Stevenson, S. J., Johnson, L. E., & Crews, C. (2011). Adolescent occupational aspirations: Test of Gottfredson's theory of circumscription and compromise. *The Career Development Quarterly, 59*(5), 412–427. https://doi.org/10.1002/j.2161-0045.2011.tb00968.x
7. Ek, E., Sovio, U., Remes, J., & Jarvelin, M. (2005). Social predictors of unsuccessful entrance into the labour market: A socialization process perspective. Journal of Vocational Behavior, 66, 471–486. doi:10.1016/j.jvb.2004.02.002.
8. Flum, H. & Blustein, D. L. 2000. Reinvigorating the study of vocational exploration: A framework for research. In E.L. Herr, S.H.Cramer, & S.G.Niles (Eds.). Career guidance and couseling through the lifespan. Boston, MA: Pearson.
9. Fulcher, M. (2011). Individual Differences in Children's Occupational Aspirations as a Function of Parental Traditionality. *Sex Roles, 64*, 117-131.
10. Ford, M. E. (1992). Motivating humans: Goals, emotions, and personal agency beliefs. Newbury Park, CA: Sage.
11. Gómez, K., & Beachum, F.D. (2019). The "Voice" of Children of Poverty: Candid Insights to Their Career Aspirations and Perceptions of Self-Efficacy. *The Urban Review*, 1-24.
12. Guimond, Serge; Chatard, Armand; Martinot, Delphine; Crisp, Richard J.; Redersdorff,

Sandrine (2006). "Social comparison, self-stereotyping, and gender differences in self-construals". Journal of Personality and Social Psychology. **90** (2): 221–242. doi:10.1037/0022-3514.90.2.221. ISSN 1939-1315. PMID 16536648.

13. Gottfredson, L. S. (1981). Circumscription and compromise: A developmental theory of occupational aspirations. *Journal of Counseling Psychology, 28*(6), 545–579. https://doi.org/10.1037/0022-0167.28.6.545
14. Helwig, A. A. (2008). From childhood to adulthood: A 15-year longitudinal career development study. *The Career Development Quarterly, 57*(1), 38–50. https://doi.org/10.1002/j.2161-0045.2008.tb00164.x
15. Hirschi, Andreas. (2009). Career adaptability development in adolescence: Multiple predictors and effect on sense of power and life satisfaction. Journal of Vocational Behavior. 74. 145-155. 10.1016/j.jvb.2009.01.002.
16. Howard, Kimberly & Walsh, Mary. (2011). Children's Conceptions of Career Choice and Attainment: Model Development. Journal of Career Development - J CAREER DEVELOPMENT. 38. 256-271. 10.1177/0894845310365851.
17. Ji, Peter & Lapan, Richard & Tate, Kevin. (2004). Vocational Interests and Career Efficacy Expectations in Relation to Occupational Sex-Typing Beliefs for Eighth Grade Students. Journal of Career Development - J CAREER DEVELOPMENT. 31. 143-154. 10.1177/089484530403100205.
18. Lawson, K.M. (2018). Mechanisms underlying parent–child occupational consistency: A critical review. Community, Work & Family, 21(3), 272–291.
19. Lee, Bora & Byun, Soo-yong. (2019). Socioeconomic Status, Vocational Aspirations, School Tracks, and Occupational Attainment in South Korea. Journal of Youth and Adolescence. 48. 1494-1505. 10.1007/s10964-019-01056-5.
20. Lee, B., & Porfeli, E. J. (2015). Youths' socialization to work and school within the family. International Journal for Educational and Vocational Guidance, 15(2), 145-162.
21. Lent, R. W., Brown, S. D. and Hackett, G. 1994. "Toward a Unifying Social Cognitive Theory of Career and Academic Interest,

Choice, and Performance" [Monograph]. Journal of Vocational Behavior 45:79-122.

22. Lent, R. W., Brown, S. D., & Hackett, G. (2000). Contextual supports and barriers to career choice: A social cognitive analysis. *Journal of Counseling Psychology, 47*(1), 36–49. https://doi.org/10.1037/0022-0167.47.1.36
23. Lerner, Richard & Freund, Alexandra & Stefanis, Imma & Habermas, Tilmann. (2001). Understanding Developmental Regulation in Adolescence: The Use of the Selection, Optimization, and Compensation Model. Human Development - HUM DEVELOP. 44. 29-50. 10.1159/000057039.
24. Magnuson, Carolyn & Starr, Marion. (2000). How Early Is Too Early to Begin Life Career Planning? The Importance of the Elementary School Years. Journal of Career Development - J CAREER DEVELOPMENT. 27. 89-101. 10.1023/A:1007844500034.
25. Markus, H., & Nurius, P. (1986). Possible selves. *American Psychologist, 41*(9), 954–969. https://doi.org/10.1037/0003-066X.41.9.954
26. McLoyd, V. C. (1989). Socialization and development in a changing economy: The effects of paternal job and income loss on children. American Psychologist, 44, 293–302. doi:10.1037/0003-066X.44.2. 293.
27. Nelson, J. N. (1978). Age and sex differences in the development of children's occupational reasoning. Journal of Vocational Behavior, 13, 287-297.
28. Patton, W., & Porfeli, E. J. (2007). Career exploration. In V. B. Skorikov & W. Patton (Eds.), Career development in childhood and adolescence (pp. 47–70). Rotterdam, The Netherlands: Sense.
29. Phipps, B. J. (1995). Career dreams of preadolescent students. Journal of Career Development, 22, 19-32.
30. Porfeli, E. J., Hartung, P. J., & Vondracek, F.W. (2008). Children's vocational development: A research rationale. *The Career Development Quarterly, 57*(1), 25–37. https://doi.org/10.1002/j.2161-0045.2008.tb00163.x
31. Rikel, A. M. (2011). Professional self-concept and professional identity in self-consciousness

structure. Part 1. *Psikhologicheskie Issledovaniya*, 2(16). Retrieved from http://psystudy.ru. 0421100116/0017. [in Russian, abstr. in English].

32. Savickas, M. L. (1991). Career as a story: Explorations using the narrative paradigm. Paper presented at the Conference of the International Association for Educational and Vocational Guidance, Lisbon, Portugal.
33. Savickas, M. L. (1997). Career adaptability: An integrative construct for life-span, life-space theory. *The Career Development Quarterly, 45*(3), 247 259. https://doi.org/10.1002/j.2161-0045.1997.tb00469.x
34. Savickas, M. L. (2005). The Theory and Practice of Career Construction. In S. D. Brown & R.W.
35. Lent (Eds.), *Career development and counseling: Putting theory and research to work* (pp. 42–70). John Wiley & Sons, Inc..
36. Schultheiss, D. E. P. (2008). Current Status and Future Agenda for the Theory, Research, and Practice of Childhood Career Development. *Career Development Quarterly*, v57 n1 p7-24
37. Schultheiss, D. E. P., Palma, T. V., & Manzi, A. J. (2005). Career development in middle childhood: A qualitative inquiry. Career Development Quarterly, 53, 246-262.
38. Schultheiss, D. E.P., & Stead, G. B. (2004). Childhood Career Development Scale: Scale Construction and Psychometric Properties. Journal of Career Assessment, 12(2), 113–134. https://doi.org/10.1177/1069072703257751
39. Super, D. E. (1957). The psychology of careers. New York: Harper & Row.
40. Super D. E. (1963). Self-concepts in vocational development // D.E. Super. Career development: Self-Concept Theory. New York: College Entrance Examination Board, P. 1–16.
41. Super, D. E. (1990). A life-span, life-space approach to career development. In D. Brown & L. Brooks (Eds.). Career choice and development (2nd ed., pp. 197–261). San Francisco: Jossey-Bass.
42. Trice, A. D., Hughes, M. A., Odom, C., Woods, K., & McClellan, N. C. (1995). The origins of children's career aspirations: IV. Testing hypotheses from four theories. Career Development Quarterly, 43, 307-322.
43. Trice, A. D., & Rush, K. (1995). Sex-stereotyping in four-year-olds'

occupational aspirations. Perceptual and Motor Skills, 81, 701-702.
44. Watson, M., & McMahon, M. (2004). Children's Career Development: A Metatheoretical Perspective. Australian Journal of Career Development, 13(3), 7–12. https://doi.org/10.1177/103841620401300303
45. Watson, M., & McMahon, M. (2005). Children's career development: A research review from a learning perspective. Journal of Vocational Behavior, 67, 119-132.
46. Whiston, S. C., & Keller, B. K. (2004). The Influences of the Family of Origin on Career Development: A Review and Analysis. The Counseling Psychologist, 32(4), 493–568. https://doi.org/10.1177/0011000004265660
47. Белинская Е.П., Тихомандрицкая О.А. Социальная психология личности: учеб. пособие для студ. высш. учеб. заведений. М.: Академия, 2009.

## STAGES OF FORMATION OF PROFESSIONAL "I" CONCEPT IN CHILDREN

**Parviz Kazimov**

**ABSTRACT**

According to some researchers preconditions for career development are shaped in childhood and that the career planning is in fact a life skill that starts to develop from early years of life. Some researchers suggest to study career development theory in combination with child development theory in order to gain deep insight into career development and peofessional self-concept.

According to research, children begin to form opinions and judgments about the suitability of different professions to them at the age of 4. At the same time a number of sub-skills related to effective career planning – awareness and research ability, other individual factors that influence decisions, qualities like self-confidence and resilience which play an important role in professional activity and are important elements of the professional self-concept are formed at an early age or derive their source from the early experiences. Those who study children's work behaviors look for the root of these behaviors in the environment in which they live, especially in the family, community, and school.

This article examines the dynamics of the early formation of the professional self-concept and career tendencies, analyzes the results of scientific researches in this area based on literature review.

Məqalə Bakı Dövlət Universitetinin Sosial və pedaqoji psixologiya iclasında müzakirə edilərək çapa məsləhət görülmüşdür (protokol №2).

Rəyçi Ə.T.Baxşəliyev, psixologiya elmləri doktoru, professor.

Məqalə redaksiyaya 19 yanvar 2022-ci ildə daxil olmuşdur.

UOT:808.5

# EKSTRASENSOR TESTLƏRİN NƏTİCƏSİNƏ TƏSİR EDƏN AMİLLƏR

**Səbinə Cəbrayılova**

*Bakı Dövlət Universiteti*
*Zahid Xəlilov küç. 33, indeks: AZ 1148*
*E-mail: sabina.cabrayilova19@gmail.com*

***Açar sözlər:*** *şəxsi xüsusiyyətlər, psixoloji aspekt, uyğunlaşma, hədəf, seçim, təcrübə, ekstrasensor qavrayış, emosiyalar.*
***Keywords:*** *personal characteristics, psychological aspect, adaptation, goal, choice, experience, extrasensory perception, emotions.*

## GİRİŞ

Anormal hadisələri təhlil edən bir sıra tədqiqatçıların fikrincə, hər bir insan anadangəlmə olaraq ekstrasensor qabiliyyətlərə malik olurlar. Biz ekstrasens kimi doğulmuşuq, amma adi insanlar kimi böyüyürük. Bunun da əsas səbəblərindən biri ondan ibarətdir ki, bizə verilmiş bu qeyri-adi imkanları inkişaf etdirmək üçün, demək olar ki, heç nə etmirik. İnsanın təbiəti haqqında bildiyimiz məlumatlardan çıxış etsək görərik ki, yaşadığımız planetimizin müxtəlif enerji prosesləri ilə qarşılıqlı əlaqədədir. Bütün bu proseslər ötürülən siqnalın quruluşuna, gücünə, sürətinə və mürəkkəbliyinə görə müxtəlif formalarda özünü göstərir. Bu amillər arasında biz sıra ilə **ekstrasensor hədəfləri**, **situasiya amillərini**, həmçinin eksperimentdə **iştirak edənlərin şəxsi və psixoloji aspektlərini** nəzərdən keçirəcəyik. **Ekstrasensor hədəflərin xüsusiyyətləri**. Ekstrasensor testlərdə istifadə olunan hədəflər ***fiziki*** (aydıngörmə qabiliyyəti araşdıran testlər), ***zehni*** (telepatiyanı müəyyənləşdirən testlər) və ***qarışıq*** (ümumi psixi qabiliyyətləri tədqiq edən testlər) ola bilər.

Hədəf qismində istifadə olunan obyektlərə rəqəmlər, hərflər, həndəsi simvollar, rənglər, sözlər, oyun kartları, rəsmlər, fotoşəkillər, 3D obyektlər, uzaq yerlər, videolar, musiqi və s. istifadə olunmuşdur. Ekstrasensor təcrübələrin nəticələrinin hədəfin hansı növündən istifadə olunmasından asılılığını müəyyən etmək

üçün bəzi tədqiqatlar aparılmışdır. Onları daha ətraflı nəzərdən keçirək.

*Hədəflərin fiziki xüsusiyyətləri*. Məlum olub ki, hədəfin ölçüsü məhdudsaylı seçimlə keçirildiyi zaman, xüsusən də tədqiq olunana müxtəlif seanslarda müxtəlifölçülü hədəflərdən istifadə edildiyi barədə məlumat verilmədiyi halda təcrübələrin müvəffəqiyyətinə təsir etmir. Həmçinin tədqiq olunanın hədəfdən hansı məsafədə olmasının da nəticəyə təsiri yoxdur, çünki uzaqdan baxışda aparılan təcrübələrdə insanlar çox uzaqda yerləşən obyektləri təsvir edə bilirdilər. Tədqiqatlar, həmçinin göstərir ki, dinamik hədəflər (məsələn, video kliplər), adətən, statik hədəflərdən (məsələn, şəkillər) daha yaxşı təxmin edilir [6]. Göründüyü kimi, dinamik hədəflər təfərrüatlarla daha zəngindir və qavranılması daha asan olur. Bundan əlavə, onlar real həyat şəraitinə daha yaxındırlar.

*Psixoloji aspekt*. İnsanların hədəf seçimləri fərqlidir. Bəzi tədqiqatlar göstərmişdir ki, tədqiq olunana xoşuna gələn hədəfdən istifadə edildikdə psi effektinin həcmi əhəmiyyətli dərəcədə artır. Bununla belə, bəzi hallarda mənfi emosiyalar yaradan hədəflər müsbət hədəflərdən daha yaxşı nəticə verə bilər. Bu, tez-tez mənfi hadisələr (məsələn, sevilən birinin ölümü) fonunda baş verən spontan ekstrasensor təcrübələrin sübutları ilə uyğun gəlir. Xüsusilə, Şervud və başqaları yuxuda aydıngörməni araşdıraraq emosional cəhətdən mənfi olan hədəflərin daha çox müsbət və ya neytral təxmin edildiyini göstərdilər [5]. Digər tərəfdən, Delanoyun təcrübələrində emosional rəngli və neytral hədəflər arasında əhəmiyyətli fərq aşkar edilməmişdir. Ola bilsin ki, hər şey konkret olaraq tədqiq olunanlardan asılıdır, yəni onlardan bəziləri emosional reaksiyaya səbəb olan təcrübələrdən həqiqətən əhəmiyyətli dərəcədə daha yaxşı keçirlər, bəziləri isə belə üstünlüklərə malik deyillər.

**Situasiya amilləri**. Burada eksperimentdə iştirak edən müxtəlif iştirakçıların rolunu, eləcə də son nəticədə eksperimentin aparılması şərtlərini nəzərdən keçirəcəyik.

*Heyət*. Eksperimentatorun daha geniş mənada təsirinin mümkünlüyünə dair sübutlar mövcuddur. Honorton və başqalarının [5] təcrübəsində tədqiq olunanlar iki qrupa ayrılmışdır. Tədqiqatçılar birinci qrupa çox müsbət və mehriban, ikinci qrupa rəsmi və soyuq münasibətlə yanaşırdılar. Nəticədə, birinci qrupun nəticələri müsbət, ikincisi qrupun nəticələri isə kəskin mənfi (psi-yayınma) olmuşdur.

Telepatik və ya ümumi ekstrasensor eksperimentlərdə daha başqa tip insanlar da – hədəflər haqqında

məlumatı fikrən alıcılara ötürməyə çalışan operatorlar iştirak edir. Bəzi hallarda, eksperimentatorun özü və ya köməkçisi operator qismində çıxış edir, lakin çox vaxt bu, təcrübənin qurulmasının incəliklərini bilməyən təsadüfi seçilmiş bir şəxs olur. Təəssüf ki, operatorun iştirakı ilə həyata keçirilən ekstrasensor tədqiqatlar az saydadır. Əsas sual ondan ibarətdir ki, operator təcrübələrin müvəffəqiyyətinə təsir edirmi? Bunu, məsələn, eyni resipientin ümumi psixi qabiliyyətlər üzrə tədqiqatlarda (operatorun iştirakı ilə) və aydıngörmə ilə bağlı olan testlərindəki (operator olmadan) nəticələrini müqayisə etməklə aydınlaşdırmaq olar. Təəssüf ki, bir çox belə təcrübələrdə tədqiq olunanlar operatorun nə vaxt hərəkət etdiyini və nə vaxt etmədiyini bilirdilər, buna görə də nəticələr etibarlı hesab oluna bilməz [4]. Resipientlərin operatorun nə vaxt təsir etdiyini və nə vaxt təsir etmədiyini bilmədiyi doğru şəkildə aparılmış bəzi eksperimentlərdə göstərilmişdir ki, ümumi ekstrasensor qabiliyyət testlərində resipientlərin nəticələri aydıngörməni tədqiq edən testlərin nəticələrindən daha yüksəkdir.

Son eksperimentlərin birində tədqiqatçılar suala cavab verməyə çalışırmışlar ki, operator ekstrasensor təcrübələrdə, həmçinin psixokinetik təsir göstərirmi? Tədqiqatçılar ganzfeld vəziyyətində olan alıcıların ifadələrinə əsaslanan psixi təcrübələrin nəticələrini onların yanında duran təsadüfi hadisələr generatorunun göstəriciləri ilə müqayisə etdilər. GSS psevdo-düşüncəni təqlid edərək 768 mümkün variant arasından təsviri ifadələri seçdi. Daha sonra bu variantlar operatorun fikri olaraq resipientlərə çatdırmağa çalışdığı hədəflərlə ötürülən informasiya ilə müqayisə edilirdi. Nəticələr göstərdi ki, həm resipientlərin cavabları, həm də GSS seçimi gözləniləndən daha çox faktiki hədəflə üst-üstə düşür. Bu, operatorun, həqiqətən də, sınaqlar zamanı psixokinetik təsir göstərə biləcəyinə dəlalət edir.

*Təcrübənin şərtləri və sxemi.* Bu günə qədər təcrübənin necə təşkil necə olunmasının, onun bir çox detallarının təcrübənin nəticəsinə təsiri öyrənilmişdir. Belə detallara fon musiqisi, işıqlandırma səviyyəsi, cavabların spontanlığı, tərif və qınaq daxildir. Ən çox öyrənilən, sınaq zamanı resipientin şüurunun müxtəlif hallarının onun nəticəsinə verdiyi töhfədir. Bu şərtlər arasında: hipnoz, meditasiya, yuxu, duyğusal məhrumiyyət (ganzfeld), narkotik intoksikasiyası qeyd olunur. Təcrübələr (metodoloji qüsurlardan məhrum deyil) göstərmişdir ki, bu vəziyyətlərin hamısı "psi-keçirici"yə

aid edilir və bu da test nəticələrinin artmasına kömək edir.

Son illərdə ganzfeld vəziyyətinə xüsusi diqqət yetirilir. Bu vəziyyətə aşağıdakı şəkildə nail olunur: tədqiq olunanın gözünə üst-üstə oxunaqlı görmə ehtimalını istisna etmək şərti ilə yarımkürələr (əksər hallarda stolüstü tennis toplarının yarısı) qoyulur, sonra gözlərə qırmızı işıq verilir, səs duyğusunun qarşısını almaq üçün kənar səslərin duyulmamasını təmin edən qulaqlıqlardan istifadə olunur; tədqiq olunanın toxunma stimullaşdırılmasını azaltmaq üçün yumşaq bir mat üzərində uzandırılır. Başqa bir otaqda telepatik yolla tədqiq olunana hədəfi telepatik yolla ötürməyə çalışan operator yerləşdirilir. Yarım saatdan sonra ekstrasensor təcrübələr aparılır: tədqiq olunan sadəcə beyninə gələn bütün görüntüləri təsvir edir. Təcrübə bitdikdən sonra resipient onun təsvirinə daha çox bənzəyən dörd hədəfdən birini seçir. Təxminetmə ehtimalı ¼; yenidən təkrarlama ilə nəticə daha yüksək olarsa, bu, ekstrasensor qavrayışın təzahürünü göstərəcəkdir [5]. Ganzfeld vəziyyətinin köməyi ilə nəyi müəyyənləşdirmək mümkün oldu?

Ganzfeld vəziyyətindən istifadə edərək dünyanın bir çox laboratoriyalarında aparılan erkən ekstrasensor təcrübələrin əksəriyyəti təsadüfi eksperimentlərdən fərqli olaraq müsbət nəticə göstərdi. Tezliklə ganzfeld effekti parapsixoloqlar və skeptiklər arasında qızğın mübahisə mövzusuna çevrildi. Nəticə etibarı ilə hər iki tərəf razılaşdılar ki, effekt realdır, lakin onun ekstrasensor qavrayışla bağlı olduğunu iddia etməzdən əvvəl onun mahiyyətini daha ətraflı öyrənmək lazımdır. Həmçinin skeptiklər ganzfeld eksperimentlərinin metodologiyasında bir sıra dəyişikliklərin edilməsini tələb edirdilər [35]. Buna baxmayaraq, metodologiyanın dəyişdirildiyi halda belə, təkrar təcrübələr müsbət nəticələr verdi. Buna baxmayaraq, bəzi tədqiqatçılar hesab edirlər ki, bu eksperimentlərin nəticələri əsas göstərici xarakterinə malik deyil, ola bilsin ki, bu təcrübələr ekstrasensor qavrayışın sübut olunmasına deyil, onun təzahürünə təsir edən amillərin öyrənilməsinə yönəlib.

Qeyd etmək lazımdır ki, bəzi təcrübələrdə ganzfeld şəraitində psi effektinin həcmi çox yüksəkdir, məsələn, Bem və Honorton təcrübəsində nəticə 50% gözləndiyi halda düzgün cavabların göstəricisi 62% olmuşdur [5]. Bununla belə, təsirin miqyası təcrübələr arasında çox dəyişir. Bunu nəzərə alaraq, ganzfeld vəziyyətinin "psi-keçirilməsini" təmin edən amilləri müəyyən etmək üçün bir çox tədqiqatlar aparılmışdır. Ganzfeld vəziyyətinin "psi keçiriciliyi", eləcə

də yuxarıda sadalanan digər şərtlər bir neçə faktorla əlaqələndirilə bilər. Birincisi, bu, inanc və iman məsələsi ola bilər: şüurun xüsusi vəziyyətlərindən birində olan insan ekstrasensor qabiliyyətlərin mövcudluğuna inanmağa daha meyillidir ki, bu da, ekstrasensor qabiliyyətlərin təzahürünə mane olan təbii intellektual maneəni aradan qaldıra bilər. İkincisi, informasiyanın emalının xüsusiyyətlərini: şüurun dəyişkən halları, bir qayda olaraq, rahatlama və diqqətin xarici dünyadan yayınmasından asılı olaraq şüurun vəziyyətinin dəyişməsi. Beləliklə, xarici siqnalları azaltmaqla insan öz psixi proseslərinə daha həssas ola bilər. Hal-hazırda "psi-ötürücü" vəziyyətlərin öyrənilməsi parapsixologiyanın ən inkişaf etmiş sahələrindən biridir.

**Tədqiq olunanların şəxsi xüsusiyyətləri.** Qeyd etmək lazımdır ki, parapsixoloqlar ekstrasensor sınaqlar üçün ideal tədqiq olunan tapmaq üçün kifayət qədər çox səy sərf etmişlər və sərf etməkdə davam edirlər. Bu ona görə məntiqlidir ki, psixi qabiliyyətləri olan insanlar təsadüfi insanlardan daha yaxşı nəticələr göstərə bilər. Tədqiq olunanların şəxsiyyət xüsusiyyətləri arasında ən yaxşı öyrənilən inanclar, əhvali-ruhiyyə və psixi xüsusiyyətlərdir; həmçinin tədqiq olunanların fizioloji və idrak xüsusiyyətlərinə dair bəzi məlumatlar da əldə edilir.

*İnanclar və İnamlar.* Tədqiq olunanın inancları ilə ekstrasensor təcrübələrin nəticələri arasında əlaqənin olması faktını araşdırmaq üçün ən məşhur tədqiqat ötən əsrin ortalarında Gertrud Şmeydler tərəfindən aparılmışdır. O bütün tədqiq olunanları iki qrupa ayırdı. Birinci qrupa ("qoyunlar") ekstrasensor qavrayışın mövcudluğuna inanan insanlar, ikinciyə skeptiklər ("keçilər") daxildir. Nəticələr göstərdi ki, birinci qrup ikinci qrupa nisbətən sınaqdan xeyli yaxşı keçib.

Sözdə "keçi və qoyun effekti" təəccüblü deyil, çünki bu, insanların yalnız qəbul etdikləri məlumatları qəbul etdiyini göstərən araşdırmalara uyğundur. Maraqlıdır ki, "keçilər" gözləntilərdən xeyli aşağı nəticələr göstərirlər (psi yayınma). Bu o deməkdir ki, onlar nəinki yalnız tapşırığa diqqət yetirməyərək tapşırıq üzərində diqqətlərini cəmləşdirmirlər, hətta hədəfləri təxmin etsələr də, qəsdən skeptik mövqelərini dəstəkləmək üçün səhv cavab deyirlər [8].

Qeyd edək ki, "keçilərin və qoyunların effekti" effektin miqyasının bəzən çox əhəmiyyətli olmamasına baxmayaraq digər parapsixoloqların təcrübələrində dəfələrlə təkrar edilmişdir. Effektin əsasında nəyin dayandığını aydınlaşdırmaq lazımdır. Lovitts təcrübələrdə müəyyən etdi

ki, effekt tədqiq olunanın təcrübənin məqsədinə olan şəxsi münasibətinin nəticəsidir. Tədqiqatçı eksperimentin məqsədinin ESQ-nin mövcudluğunu təkzib etmək olduğunu dedikdə, nəticələr diametrik olaraq əks idi: "qoyunlar" gözlənilən dəyərdən az, "keçilər" isə daha çox təxmin etdilər. Bu, "keçilərin və qoyunların təsiri"nin subyektlərin öz psi-qabiliyyətlərini inanclarına uyğun istifadə etmələrinin nəticəsi olduğunu göstərir. *Wiseman və Smith*-in sonrakı təcrübəsində bu nəticələr təsdiqləndi [7].

